RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 126 (8719) ŞƏNBƏ, 19 iyun 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Qardaşlığın və birliyin təntənəsi

**Müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan-Türkiyə münasibətlərinə yeni məzmun gətirən böyük siyasi və tarixi hadisədir**

**Azərbaycanın ərazi bütövlüyünün bərpası və işğal olunan torpaqların azad edilməsi ilə nəticələnən İkinci Qarabağ savaşı regionda tamamilə yeni reallıqlar yaradaraq respublikamızın həm Cənubi Qafqazda, həm də qlobal miqyasda mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirdi.**

İlham Əliyevin Ali Baş Komandanlığı ilə hərb meydanında qazanılan Qələbə son onilliklərdə sürətli yüksəliş dövrünü yaşayan Azərbaycanı beynəlxalq aləmdə həm də qalib dövlət kimi tanıtdı. Bu Qələbə son iki əsrlik tariximizin zirvə nöqtəsi oldu.

### Şuşadan verilən mesajlar

Müharibə bitsə də, münaqişə başa çatsa da, Azərbaycan Qarabağ meydanında uğurlarını davam etdirir. Hərbi əməliyyatların başa çatmasından ötən 8 ayda işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa işləri çərçivəsində əldə olunan nailiyyətlərin hər biri respublikamızın böyük Zəfərdən sonrakı yenidənqurma təntənəsidir. Aparılan məqsədyönlü fəaliyyət nəticəsində iyunun 12-də Ermənistanın Ağdam rayonu üzrə tank və piyada əleyhinə 97 min minanı özündə əks etdirən xəritələri Azərbaycana verməsi ölkəmizin növbəti qələbəsi oldu. Mina xəritələrinin alınması Prezident İlham Əliyevin qətiyyətli iradəsinin nəticəsi, ölkəmizin diplomatik uğurudur.

*Ardı 5-ci səh.*

# Vahid hədəf, bir məqsəd

## Yeni mərhələyə qədəm qoyan Azərbaycan-Türkiyə müttəfiqliyi müharibə üçün deyil, sülhə səy göstərir

**Azərbaycan-Türkiyə birliyini, tərəflərinin bir-birinə verdiyi güclü dəstəyi dünya yalnız Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, TANAP və TAP kimi böyük iqtisadi layihələrin reallaşması, Vətən müharibəsi zamanı görməyib. Bu dəstək tarixin bütün dönəmlərində, hər zaman, hər sahədə hiss edilib. İki qardaş ölkə mənəvi, siyasi baxımdan bir-birlərinin yanlarında olduqlarını daim nümayiş etdiriblər.**

Mustafa Kamal Atatürkün bu gün dillər əzbəri olan “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir” bəyanatı, Ümummilli Lider Heydər Əliyevin “biz bir millət-iki dövlətik” kəlamı, Prezident İlham Əliyevin Avropa İttifaqının “Şərq tərəfdaşlığı” Proqramının sammitindəki çıxışı zamanı “Bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam” cavabını verməsi, dünya ölkələrinin erməni işğalına reaksiya vermədiyi dövrlərdə Rəcəb Tayyib Ərdoğanın “Qarabağ Azərbaycan qədər bizim də məsələmizdir” sözləri qarşılıqlı dəstəyin ən bariz nümunələridir.

Azərbaycana rəsmi səfəri çərçivəsində Milli Məclisdə çıxış edən Rəcəb Tayyib Ərdoğan “Bu gün də Azərbaycanın yanındayıq və bütün dünya bilsin ki, daim Azərbaycanın yanında olacağıq. Necə ki, Çanaqqalada azərbaycanlı gənclər Anadolu gəncləri ilə birlikdə şəhadətə yürüyüb qələbə qazanmışdılarsa, necə ki, Nuru Paşanın aslanları 1918-ci ildə Azərbaycanın köməyinə gəlmişdisə, biz də bu gün və gələcədə bərabər olacağıq.

Azərbaycanın sevinci sevincimiz, azadlığı azadlığımız, kədəri kədərimizdir” deməklə dünya birliyinə bir daha bu dostluğun tarixi köklərinin olduğunu xatırladaraq onun daimi olacağını bəyan etdi.

*Ardı 5-ci səh.*

# Bakıda daha bir müasir hotel istifadəyə verildi

## Prezident İlham Əliyev “Intercontinental” hotelinin açılışında iştirak edib





**İyunun 18-də Bakıda beşulduzlu “Intercontinental” hotelinin açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.**

Əvvəllər bu ərazidə “Cənub” mehmanxanası yerləşirdi. İndi onun yerində gözoxşayan memarlıq üslubunda yeddimərtəbəli “Intercontinental” hoteli inşa olunub. Bu gün dünyada pandemiyanın davam etməsinə, iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə mühüm sosial-iqtisadi infrastruktur layihələrinin icrası uğurla davam edir. Müasir səviyyədə inşa olunan “Intercontinental” hotelinin istifadəyə verilməsi bunun daha bir təzahürüdür.

Ölkəmizdə turizmin böyük gələcəyinin olduğunu daim vurğulayan dövlət başçısı hələ neçə illər bundan əvvəl Azərbaycanda ən müasir hotellərin, o cümlədən məşhur dünya brendlərinə aid mehmanxanaların inşasının vacibliyini qeyd edirdi.

*Ardı 2-ci səh.*



# Yeni çəkilən yollarla üzü Şuşaya...

## Yağıdan qurtulan Qarabağın torpağı çiçək açır, çeşmələri qaynayır,obaları nura qərq olur

**Qarabağın uzun illər yağı tapdağında qalan torpağı artıq azad nəfəs alaraq gül-çiçək açır. Qarabağ ellərinə işıq gəlir, yeni rahat yollar çəkilir, şəhərlər, kəndlər yenidən qurulur.**

Prezident İlham Əliyevin işğaldan azad edilmiş bölgələrə hər səfəri zamanı bərpa olunmuş, yaxud təzə qurulmuş bir infrastruktur istismara verilir. Eləcə də yeni layihələrin təməli qoyulur.

Bu il iyunun 14-də işğaldan azad edilmiş ərazilərə növbəti səfəri zamanı dövlət başçısı Əhmədbəyli-Füzuli-Şuşa yolunda və “Zəfər” yolunda görülən işlərlə tanış oldu. Prezidentə avtomobil yollarında tikinti işlərinin gedişi barədə məlumat verildi. Xatırladaq ki, 4 və 6 hərəkət zolaqlarından ibarət Əhmədbəyli-Füzuli-Şuşa yolunun uzunluğu 81, “Zəfər” yolunun uzunluğu isə 101 kilometr olacaq. Hər iki yol boyunca tunellər, körpülər inşa ediləcək, bütün zəruri infrastruktur yaradılacaq.

Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Daşaltı kəndinin ərazisindən keçən hissəsində tunel inşa ediləcək. Prezident İlham Əliyev Şuşaya səfəri çərçivəsində bu tunelin də təməlini qoydu. Burada hər biri iki zolaqdan ibarət iki tunel tikiləcək. Tunellərin digər texniki göstəriciləri də eyni, yeni hərəsinin uzunluğu 530, eni 12 metr olacaq.

*Ardı 6-cı səh.*

◆ **Milli qəhrəmanlar**

# Qurd ürəkli İBAD



*Bu əhvalat düz yarım əsr əvvəl baş vermişdi...*

*Bozaran qış günəşi ağacların qara kölgələrini arxasınca sürüyərək uzaqlaşır, bu fürsətdən istifadə edən zülmətsə amansızca meşəyə hücum çəkirdi...*

*Küləyin qaldırdığı çovğunun vıyıltısı ilə səs-səsə verən yalquzaqlar ayı görmək ümidi ilə üzlərini göyə tutub ulayırdılar...*

*Şaxtalı, ayazlı bu zimistan gecəsində xocavəndli ovçu Mövsüm kişi bayaqdan bəri diz boyu olan qarı yara-yara irəliləyirdi. Neçə vaxt idi ki, kənd-kəsəyin qoyun-quzusuna dadanmış bir canavarın izini sürürdü və hiss edirdi ki, aradığı çox da uzaqda deyil...*

### Ana bətnində qurd ürəyi yedi...

Dar cığırla irəliləyərkən birdən sanki qeybdən qarşısında iki yanar alov peyda oldu... Bundan sonra isə bir-birinə meydan oxuyan iki cüt qəzəbli göz toqquşaraq şimşək kimi qaranlığa işıq saçdı. Həmin an hər ikisinə də əyan idi ki, yolun sonuna gəliblər. Bundan sonra daha cəsarətli, daha qətiyyətli olan bu ölüm-dirim savaşından qalib ayrılacaq...

Biri ovçu olacaq, digəri şikar...

*Ardı 8-ci səh.*

UEFA EURO2020

## Futbol üzrə XVI Avropa çempionatı






# SÜRPRİZƏ İMKAN VERİLMƏDİ

**Turnirin favoritləri sırasında göstərilən Niderland millisi Avstriya ilə qarşılaşmaya çox sürətli başladı. Cinahlardan hücumlara üstünlük verən Frank De Burun komandası meydançanın rəqibə aid hissəsində tətbiq etdiyi pressinqlə Avstriyanın müdafiədən çıxmasına imkan vermədi.**

Nəticədə xətlər arasında əlaqənin itməsinə görə müdafiə ilə hücum arasında boşluqlar yarandı. Bir sözlə, Avstriyanın oyun planı pozuldu. Bundan istifadə edən Memfis Depay 11-ci dəqiqədə vurduğu qolla qarşılaşmada hesabı açdı.

Qoldan sonra daha çox qısa ötürmələrə üstünlük verən Niderland yığması oyuna nəzarəti ələ aldı. Avstriya futbolçuları isə topun ardınca o qədər çox qaçdılar ki, artıq 60-cı dəqiqədən sonra yorğunluq hiss edilməyə başladı.

*Ardı 10-cu səh.*

# Bakıda daha bir müasir hotel istifadəyə verildi

## Prezident İlham Əliyev "Intercontinental" hotelinin açılışında iştirak edib





*Əvvəli 1-ci səh.*

Həyat Prezident İlham Əliyevin uzaqgörənliyini bir daha təsdiqlədi. Pandemiyadan əvvəlki son illərdə Azərbaycanda turizmin inkişafı böyük vüsət aldı. Lakin bütün dünyada olduğu kimi, COVID-19 virusunun sürətlə yayılması ölkəmizdə də turizmin inkişafına ciddi maneə yaratdı. İndiki şəraitdə yeni hotellərin istifadəyə verilməsi Azərbaycanda uzaqgörən siyasətin həyata keçirilməsinin bariz göstəricisidir.

Yaradılan müasir hotel idarəçiliyi ölkəmizə beynəlxalq səviyyəli bir çox mehmanxana brendlərinin gəlməsi ilə nəticələnib. Bu isə bütün sahələrdə olduğu kimi, turizm, o cümlədən bu sektorun əsasını təşkil edən müasir hotel sisteminin yaradılması istiqamətində dövlət səviyyəsində görülən işlər hesabına mümkün olub. Ümumilikdə, müasir hotellərin istifadəyə verilməsi bir neçə mühüm amili özündə ehtiva edir. Onlar turizm sektorunun inkişafına dəstək, hotel biznesinin genişləndirilməsi, turistlərin rahatlığının təmin olunması, yeni iş yerlərinin yaradılması və Bakının ümumi inkişafına verilən töhfədir.

"Intercontinental" hotelində, ümumilikdə, müxtəlif kateqoriyalara aid 126 otaq var. Otaqların hər birində qonaqların özlərini maksimum rahat hiss etməsi üçün bütün zəruri şərait yaradılıb. Hoteldə turistlərin və paytaxt sakinlərinin xidmətində olacaq restoranlar, konfrans zalları və digər infrastruktur mövcuddur.

Burada "Lamborghini Bakı Mərkəzi"nin satış salonu da yaradılıb. Salonda müştərilərə yüksək xidmət göstərmək üçün geniş imkanlar var.

# Azərbaycan Respublikasının səhiyyə işçilərinə fəxri adların verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında səhiyyə sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar həkim"**

Abbasov Əyyub Məhəmməd oğlu
Abbasov Musa Qara oğlu
Bədəlov Vəlixan Beyxan oğlu
Əfəndiyev Fərhad Rəşid oğlu
Əsgərov Niyazi Əli oğlu
İsmayılov Habil Məcid oğlu
Mansurov Elçin Bilal oğlu
Nağıyev Rauf Həsən oğlu
Niftəliyev Hüseyn Əsrafil oğlu

**"Əməkdar tibb işçisi"**

Abdullayeva Tamilla Bilal qızı
Abuzərova Ruqiyyə Rəhim qızı
Əhmədova Dilarə Əli qızı
Əliyeva Zəminə Abbas qızı
Hacıyeva Axam Abdulla qızı
Hüseynova Qızbəs Əziz qızı
Hüseynova Ülviyyə Vaqif qızı
İsmayılova Aygün Vilazim qızı
Qurbanova Gülnaz Rasim qızı
Umarova Lola Şəmsəddinovna.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyun 2021-ci il*

# Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 20 illiyi münasibətilə və dövlət-din münasibətlərinin tənzimlənməsində səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Tərəqqi" medalı ilə**

Allahverdiyeva Səbinə Elbrus qızı
Babayev Vüqar Səyyad oğlu
Həziyev Əli Vəli oğlu
Hümmətov Vüqar Hümmət oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

İsmiyev Şəhriyar Muradxan oğlu
Paşazadə Tərxan Əlhəddin oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyun 2021-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Efiopiya Federativ Demokratik Respublikasının xalqı, hökuməti adından və şəxsən öz adımdan Sizə və Sizin şəxsinizdə Azərbaycan Respublikasının xalqına və hökumətinə ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Əminəm ki, ölkələrimiz arasında mövcud olan əməkdaşlıq qarşıdakı illərdə ortaq maraq kəsb edən bütün sahələrdə daha da dərinləşəcək.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına isə tərəqqi və rifah arzulayıram.

*Hörmətlə,*

***Sahle-Vork ZEVDE,***
***Efiopiya Federativ Demokratik Respublikasının Prezidenti***

# Azərbaycan Respublikasının səhiyyə işçilərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında səhiyyə sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Abdurəhmanov Mürsəddin Sarxan oğlu
Azadxanov Elnur Ramazan oğlu
Babayeva Nəzakət Yaqub qızı
Əliyev Əmir Vüqar oğlu
Əliyev Mustafa Həsən oğlu
Əliyev Taleh Elqərib oğlu
Əliyeva Xatirə Həsənqulu qızı
Əzizov Məhəmməd Həsənağa oğlu
Həsənov Asiman Balakişi oğlu
İsmayılov Fazil Valeh oğlu
Qasımov Emil Fəzail oğlu
Qasımova Günay Əliqulu qızı
Quliyev Elçin Hacı oğlu
Mahmudova Nailə Mehdi qızı
Məmmədov Elçin Bəxtiyar oğlu
Məmmədov Fikrət Fazil oğlu
Məmmədova Dürdanə Ağa qızı
Məmmədova Lalə Oqtay qızı
Musayev Mətləb Xasay oğlu
Nuriyev Bayram Səyavuş oğlu
Piriyev Namiq Süleyman oğlu
Rüstəmov Kamal Rüstəm oğlu
Şəfiyev Oruc Yusif oğlu
Teymurov Arzu Zakirəddin oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyun 2021-ci il*

# Dövlət Komissiyası Ermənistanın təcavüzü nəticəsində mülki obyektlərə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı məsələləri müzakirə edib





İyunun 18-də Baş nazir Əli Əsədovun sədrliyi ilə 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini və aradan qaldırılmasını təmin etmək məqsədilə yaradılmış Dövlət Komissiyasının növbəti iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iclasda komissiyanın üzvləri və təcavüzə məruz qalmış şəhər və rayonların icra hakimiyyəti başçıları iştirak ediblər.

İclas zamanı dəymiş ziyanın aradan qaldırılması sahəsində indiyə qədər görülmüş işlərə dair məlumatlar dinlənilib, konkret istiqamətlər və işlərin sürətləndirilməsinə dair tapşırıqlar verilib.

# Rusiya Qarabağda vəziyyətin sabitləşməsi barədə Türkiyə, Ermənistan və Azərbaycanla sıx əlaqə saxlayır



Rusiya Qarabağda vəziyyətin sabitləşməsi barədə Türkiyə, Ermənistan və Azərbaycanla sıx əlaqə saxlayır.

AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib. O deyib: "Biz Ankara, Bakı və Yerevan ilə sıx əlaqədəyik və hesab edirik ki, atılan hər bir addım Cənubi Qafqazda bundan sonrakı vəziyyətin sabitləşməsinə, infrastrukturun, nəqliyyat logistikasının inkişafına, bütövlükdə, vəziyyətin düzəlməsinə kömək olmalıdır və gərginliyin artmasına səbəb ola biləcək hər hansı elementləri özündə əks etdirməməlidir".

# Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin "Kosmos" pavilyonunda MDB İqtisadi Şurasının iclası keçirilib





**İyunun 18-də Moskvada, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin (XTNS) "Kosmos" pavilyonunda MDB İqtisadi Şurasının növbəti 90-cı iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda MDB İqtisadi Şurasının sədri, Belarus Respublikası Baş nazirinin müavini İqor Petrişenko sədrlik edib. Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov iclasın işində iştirak edib.

MDB İqtisadi Şurasının üzvləri MDB-yə üzv ölkələrin iqtisadi əməkdaşlığı ilə bağlı ən aktual məsələlər barədə fikir mübadiləsi aparıb, MDB-nin sahəvi orqanlarının qarşılıqlı fəaliyyətinin perspektivlərini, MDB dövlətlərinin və MDB İcraiyyə Komitəsinin qarşısında duran əsas məsələləri müzakirə ediblər.

XTNS-nin Baş direktoru Sergey Şoqurov İqtisadi Şura üzvlərini MDB-yə üzv dövlətlərin XTNS ərazisində sərgi-ticarət mərkəzlərinin statusu, bu mərkəzlərin yaradılması və açılması ilə bağlı işlərin gedişi barədə məlumatlandırıb.

Nəzərdə tutulur ki, MDB-yə üzv dövlətlərin sərgi-ticarət mərkəzləri "XTNS" Səhmdar Cəmiyyətinin MDB-nin bu il qeyd edilən 30 illik yubileyinə həsr edilmiş tədbirlərində fəal iştirak edəcəklər.

MDB Dövlətlərarası Statistika Komitəsinin sədri Vladimir Sokolin məruzə ilə çıxış edib. O, iclas iştirakçılarını 2020-ci il ərzində üzv ölkələrin sosial-iqtisadi vəziyyətini, iqtisadi inkişafın səviyyəsini və dinamikasını, habelə iqtisadi inteqrasiya dərəcəsini xarakterizə edən əsas makroiqtisadi göstəricilərin monitorinqi barədə məlumatlandırıb.

İclasda RF energetika nazirinin müavini Pavel Snikkars MDB-yə üzv ölkələrin energetika sahəsində əməkdaşlıq konsepsiyasının həyata keçirilməsinə dair təxirəsalınmaz tədbirlər planının yerinə yetirilməsi yekunları barədə məruzə ilə çıxış edib.

MDB ölkələrinin sahəvi əməkdaşlıq üzrə baza təşkilatları statusu verilməsi mövzusu iclasda ayrıca bir blok kimi nəzərdən keçirilib.

"Kurçatov İnstitutu" Elmi-Tədqiqat Mərkəzinə MDB ölkələrinin "meqasayens" tədqiqat infrastrukturunun inkişafı üzrə baza təşkilatı statusu verilib.

MDB-də sahəvi əməkdaşlıq orqanlarının işinin fəallaşdırılması məsələsinə xüsusi diqqət yetirilib. MDB İqtisadi Şurasının iclaslarında sahəvi əməkdaşlıq orqanlarının hesabatlarının müntəzəm dinlənilməsi, bu orqanların kuratorluq etdiyi iqtisadiyyat sahələrinin problemlərinin və inkişaf perspektivlərinin qiymətləndirilməsinin zəruri olması barədə qərar qəbul edilib.

MDB İqtisadi Şurasının növbəti iclası sentyabrın 24-də Moskvada keçiriləcək.

# Fövqəladə hallar naziri Türkiyənin ölkəmizdə yeni təyin olunmuş səfiri ilə görüşüb

İyunun 18-də Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov Türkiyə Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri Cahit Bağçı ilə görüşüb.



FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Kəmaləddin Heydərov səfir Cahit Bağçını səmimi salamlayaraq, ona Azərbaycandakı diplomatik fəaliyyətində uğurlar arzulayıb. Nazir fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində iki qardaş ölkənin aidiyyəti qurumları arasında qarşılıqlı əlaqələrin daim genişləndiyini bildirib. Ölkələrimiz arasındakı qardaşlıq və dostluq əlaqələrindən bəhs edən nazir Kəmaləddin Heydərov iyunun 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın imzaladıqları "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin əhəmiyyətindən danışıb. Səfir Cahit Bağçı səmimi görüşə görə təşəkkürünü bildirərək, Azərbaycandakı diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasındakı qardaşlıq və qarşılıqlı dostluq münasibətləri çərçivəsində Azərbaycanın Fövqəladə Hallar Nazirliyi ilə Türkiyənin müvafiq dövlət qurumları arasında mövcud sıx əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

# Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar üzrə İşçi Qrupunun növbəti iclası keçirilib

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar üzrə İşçi Qrupunun növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, İşçi Qrupa daxil olan aidiyyəti dövlət qurumlarının nümayəndələrinin iştirak etdikləri iclasda xüsusi olaraq qeyd olunub ki, işğaldan azad edilmiş ərazilərin müasir çağırışlar nəzərə alınaraq və ən yeni texnologiyalar tətbiq edilməklə kompleks bərpası məqsədilə Prezident İlham Əliyevin müəyyənləşdirdiyi ümumi kurs, imzaladığı fərmanlar və sərəncamlar, verdiyi tapşırıqlar əsas götürülərək nəqliyyat və rabitə infrastrukturunun bərpası məqsədilə əhəmiyyətli layihələr icra edilməkdədir.

Belə ki, işğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına qısa müddətdə reinteqrasiyası baxımından ərazi daxilində, eləcə də ərazi ilə digər regionlar arasında beynəlxalq standartlara cavab verən nəqliyyat infrastrukturu qurmaqla kommunikasiyaların bərpası, bu sahədə regional əməkdaşlığın genişləndirilməsi və bölgənin tranzit potensialının gücləndirilməsi olduqca vacibdir.

Bu məqsədlə həmin ərazilərdə işğala qədər mövcud olmuş avtomobil və dəmir yollarının, eləcə də hava limanlarının bərpa edilməsi və tələbata uyğun olaraq yenilərinin tikintisi üzrə hazırda icra edilən prioritet layihələrlə bağlı aidiyyəti qurumların nümayəndələri tərəfindən məlumatlar verildi, layihələrin icrası zamanı qarşıya çıxan məsələlərin həlli istiqamətində müzakirələr aparıldı.

İclasda həmçinin qeyd olundu ki, işğaldan azad edilmiş ərazilərin ölkənin vahid informasiya-kommunikasiya məkanına hərtərəfli inteqrasiyası üçün magistral və lokal telekommunikasiya şəbəkələrinin tikilməsi və alternativlik təmin edilməklə respublikanın ümumistifadəli telekommunikasiya şəbəkəsinə qoşulması, müasir tələblərə uyğun mobil və sabit telekommunikasiya şəbəkələrinin qurulması, orada yaşayacaq və fəaliyyət göstərəcək əhaliyə və dövlət qurumlarına yeni texnologiyalar əsasında keyfiyyətli və fasiləsiz telefon, internet, radio-televiziya yayımı, poçt-maliyyə və s. xidmətlərinin təşkil edilməsi, efirə radionəzarətin və efir məkanının təhlükəsizliyinin təmin olunması ilə bağlı zəruri tədbirlər həyata keçiriləcəkdir. Bu məqsədlə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində rabitə xidmətlərinin təşkilinə dair Fəaliyyət Proqramı" hazırlanmış, aidiyyəti işçi qruplarının, eləcə də qurumların rəyləri nəzərə alınaraq İdarələrarası Mərkəzə təqdim edilmiş və müvafiq qaydada icraya götürülmüşdür.

İşğaldan azad olunan ərazilərdə nəqliyyat və rabitə infrastrukturunun bərpası üzrə bütün qurumlar tərəfindən görülən işlərin İşçi Qrupu vasitəsilə İdarələrarası Mərkəzlə əlaqələndirilməklə icra edilməsinin, hər bir qurum və nümayəndə tərəfindən bu proseslərdə fəal və qarşılıqlı əməkdaşlıq şəraitində iştirakın təmin olunmasının vacibliyi vurğulanıb.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# Prezidentin köməkçisi Antalya Diplomatiya Forumu çərçivəsində keçirilən paneldə çıxış edib



**Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Antalya Diplomatiya Forumu çərçivəsində təşkil olunan paneldə çıxış edib.**

AZƏRTAC xəbər verir ki, "Virtual dünyada saxta xəbərlər" mövzusunda keçirilən paneldə hazırda qlobal problemə çevrilən saxta, uydurma informasiyaların yayılması, onun yaratdığı təhlükələr və vəziyyətdən çıxış yolları müzakirə olunub.

Paneldə münaqişələrin qarşısının alınması və erkən xəbərdarlıq mərkəzinin prezidenti Lulian Cifunun, tanınmış yazıçı, Portuqaliyanın keçmiş Avropa naziri Bruno Macaesin, Qətərin xarici işlər nazirinin köməkçisi və Xarici İşlər Nazirliyinin sözçüsü Lolvah Rashid Al-Khaterin çıxışları dinlənilib. Paneldə çıxış edən Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev ölkəmizin müxtəlif vaxtlarda müəyyən dairələr tərəfindən məqsədli şəkildə yayılan "feyk nyus" hücumlarına məruz qaldığını, hətta bəzi xarici kütləvi informasiya vasitələrinin həqiqətə uyğun olmayan həmin informasiyalara istinad edərək Azərbaycan haqqında yanlış rəy formalaşdırmağa çalışdığını bildirib. Təəssüflə qeyd olunub ki, hətta bəzi hallarda Azərbaycan haqqında həqiqi məlumat yayan şəxslərin sosial media hesablarının bağlanması halları da müşahidə olunub.

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) baş katibi Düsen Kaseinov, ABŞ-ın Azərbaycandakı sabiq səfiri, ATƏT-in Minsk qrupunun keçmiş həmsədri, beynəlxalq ekspert Metyu Brayza, Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırəli, həmçinin səfirlər, deputatlar, digər nüfuzlu şəxslər paneldə iştirak ediblər.

Çıxışlardan sonra suallar cavablandırılıb.

# İqtisadiyyat Nazirliyi Türkiyə şirkəti ilə anlaşma memorandumu imzalayıb

İqtisadiyyat Nazirliyi Türkiyənin aparıcı şirkətlərindən olan "Zorlu Holding"lə anlaşma memorandumu imzalayıb.



AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib.

Nazir qeyd edib ki, yeni əməkdaşlıq platforması Azərbaycan iqtisadiyyatının bir sıra sahələrinə, o cümlədən tekstil sənayesinə sərmayə qoyuluşuna, qardaş ölkə ilə iqtisadi əlaqələrimizin daha da möhkəmlənməsinə töhfə verəcək. Həyata keçiriləcək layihələr müasir texnologiyaların tətbiqinin genişlənməsinə, yeni iş yerlərinin açılmasına əlavə imkanlar yaradacaq.

# Azərbaycanla Rusiya arasında Xəzər dənizi məsələləri üzrə ikitərəfli məsləhətləşmələr aparılıb

İyunun 17-də Xarici İşlər Nazirliyində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Xəzər dənizi məsələləri üzrə ikitərəfli məsləhətləşmələr keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, məsləhətləşmələrdə Azərbaycan tərəfini xarici işlər nazirinin müavini, Azərbaycan Respublikası Prezidentinin sərhəd və Xəzər dənizi məsələləri üzrə xüsusi nümayəndəsi Xələf Xələfov, Rusiya tərəfini isə Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri, Rusiya Federasiyası Prezidentinin MDB üzv dövlətləri ilə Rusiya Federasiyasının dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə xüsusi nümayəndəsi Mixail Petrakov təmsil ediblər.

Görüşdə Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın implementasiyası ilə bağlı məsələlər, dövlət başçıları səviyyəsində növbəti Xəzər Zirvə Toplantısına hazırlıqla əlaqədar tədbirlər müzakirə edilib, eləcə də Xəzəryanı dövlətlər arasında hazırda razılaşdırma mərhələsində olan sahəvi əməkdaşlıq məsələləri ilə bağlı saziş layihələri danışıqların mövzusu olub.

Görüşdə həmçinin Xəzər dənizi məsələləri üzrə Yüksəksəviyyəli İşçi Qrupun növbəti iclasının keçirilməsi və gündəliyinə dair məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Bölgədə yaranmış yeni vəziyyət regional əməkdaşlıq üçün imkanlar açır

**İyunun 18-də xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumu çərçivəsində BMT Baş katibinin siyasi məsələlər üzrə köməkçisi Miroslav Yença ilə görüşüb.**




AZƏRTAC xəbər verir ki, görüşdə BMT ilə Azərbaycan arasındakı əməkdaşlığın səviyyəsindən razılıq bildirilərək, gələcək əməkdaşlıq imkanları müzakirə edilib.

Görüş zamanı nazir postmünaqişə mərhələsində azad edilmiş ərazilərdə mövcud olan vəziyyət, minaların təmizlənməsi, üçtərəfli bəyanatların icrası haqqında qarşı tərəfə ətraflı məlumat verib. O, hazırkı mərhələdə işğal amilinin aradan qaldırılması ilə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması imkanı, azad edilmiş ərazilərdə həyata keçirilən bərpa, yenidənqurma prosesindən danışıb. Münaqişənin həllinin regionda sülh, təhlükəsizlik və əməkdaşlıq üçün yeni perspektivlər yaratdığı və bölgədə yaranmış yeni vəziyyətin regional əməkdaşlıq üçün açdığı imkanlar vurğulanıb. Nazir üçtərəfli Bəyanatın icrası ilə əlaqədar tərəfimizdən atılmış humanitar addımlar, habelə regionda iqtisadi və nəqliyyat bağlantılarının açılmasının önəmini vurğulayıb. Qarşı tərəf Azərbaycan ilə BMT arasında müsbət əməkdaşlıq təcrübəsinin olduğunu və bu əməkdaşlığın genişləndirilməsi üçün geniş imkanların olduğunu qeyd edib.

Sonra Azərbaycan və Ermənistan arasında hərbi əməliyyatların dayandırılmasına dair razılığın əldə olunmasını müsbət qiymətləndirən Miroslav Yença eyni zamanda bölgədə baş verən son hadisələr, o cümlədən sərhəd məntəqəsində yaşanan gərginlik ilə bağlı narahatlığını ifadə edib. O, həmçinin sülhün möhkəmləndirilməsi üçün növbəti addımların atılmasının əhəmiyyəti, üçtərəfli Bəyanatdan irəli gələn məsələlərinin icrasının vacibliyini vurğulayıb.

Görüş zamanı tərəflər habelə Azərbaycanla BMT tərəfdaşlığı və potensial əməkdaşlıq sahələri üzrə ümumi fikir mübadiləsi aparıblar.

# Ölkəmizin beynəlxalq hüquqa əsaslanan ədalətli mövqeyinə Somali hər zaman dəstək olub

**İyun 18-də Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Somali Federal Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Mohamed Abdirizak ilə görüşüb.**




AZƏRTAC xəbər verir ki, nazir Ceyhun Bayramov qarşı tərəfə 44 günlük Vətən müharibəsindən sonra bölgədə mövcud olan vəziyyət ilə bağlı ətraflı məlumat verib. Bu xüsusda nazir qarşı tərəfə cari ilin 13 iyun tarixdə Somali Federativ Respublikasının Azərbaycan Respublikasında akkreditə olunmuş qeyri-rezident səfiri Cama Abdullahi Mohamedinin Azərbaycan səfəri çərçivəsində azad edilmiş Ağdam rayonuna etdiyi səfərinə toxunaraq onun şəxsən Ermənistanın törətdiyi dağıntıların miqyasının şahidi olduğunu qeyd edib.

Nazir Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ədalətli mövqeyinə Somalinin hər zaman dəstək olduğunu vurğulayıb.

Nazirlər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə edib, habelə iki ölkə arasında yüksəksəviyyəli səfərlərin həyata keçirilməsinin əhəmiyyətini vurğulayıblar.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Xorvatiya hər zaman Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığını müdafiə edib

İyunun 18-də Antalya Diplomatiya Forumunda iştirakı çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Xorvatiya Respublikasının xarici və Avropa işləri üzrə naziri Qordan Grliç Radman ilə görüşüb.




AZƏRTAC-ın məlumatına görə, görüşdə nazir Ceyhun Bayramov qarşı tərəfə postmünaqişə mərhələsi və azad edilmiş ərazilərdə mövcud olan vəziyyət, bu ərazilərdəki onilliklər ərzində törədilən dağıntıların miqyası, mina təhlükəsi, minaların təmizlənməsi, bərpa və quruculuq işlər barədə ətraflı məlumat verib. Həmçinin nazir Azərbaycan ilə Ermənistan arasında ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmət əsasında sülh sazişinin imzalanmasının vacib olduğunu vurğulayıb.

Nazir Qordan Grliç Radman Xorvatiyanın hər zaman Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığını dəstəklədiyini qeyd edib. O, Azərbaycan və Xorvatiya arasında iqtisadi əməkdaşlığı təşviq etmək məqsədi ilə Birgə Komissiyanın fəaliyyətinə istinad edərək iqtisadi, kənd təsərrüfatı, turizm sahələrində əməkdaşlıq imkanlarını qeyd edib. Azərbaycanın Xorvatiyada baş vermiş zəlzələ zamanı göstərdiyi dəstəyə görə təşəkkür ifadə edilib.

Görüşdə həmçinin iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə Qvineya-Bissau arasındakı əlaqələr müzakirə olunub

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Antalyada Qvineya-Bissaunun xarici işlər naziri xanım Syuzi Karla Barbosa ilə ikitərəfli görüş keçirib.




AZƏRTAC xəbər verir ki, Antalya Diplomatiya Forumu çərçivəsində baş tutan görüşdə tərəflər ikitərəfli əməkdaşlıq münasibətlərinin inkişaf perspektivləri, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Azərbaycan və Qvineya-Bisau arasında qarşılıqlı hörmət və dəstəyə əsaslanan münasibətlərin səviyyəsindən məmnunluq ifadə edilib və əlaqələrin daha da dərinləşdirilməsi baxımından yüksəksəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb.

Görüş zamanı həmçinin tərəflər bölgədə mövcud olan cari vəziyyət, üçtərəfli bəyanatların icrası, habelə sərhəddə baş verən son gərginliklə bağlı fikir mübadiləsi aparıblar. Nazir Ermənistanın Azərbaycana qarşı təcavüzü, son 28 il ərzində münaqişənin həlli üzrə sərgilədiyi qeyri-konstruktiv yanaşma, bu ölkənin 44 günlük müharibə zamanı Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi cinayətlər də daxil olmaqla, törətdiyi müharibə və insanlıq əleyhinə cinayətlərə diqqət çəkib.

Postmünaqişə mərhələsi və bölgədəki cari vəziyyətdən danışan nazir işğaldan azad edilmiş ərazilərdəki vəziyyət, bu ərazilərdəki mina təhlükəsi və doğurduğu fəsadlar, həyata keçirilən bərpa və quruculuq işləri, ərazilərin gələcək inkişafı planları barədə həmkarına məlumat verib.

Öz növbəsində, xanım Syuzi Karla Barbosa beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimiz arasında aparılan əməkdaşlığı yüksək qiymətləndirərək, həm ikitərəfli, həm də çoxtərəfli formatlarda əməkdaşlığın uğurla həyata keçirildiyini qeyd edib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlər üzrə geniş fikir mübadiləsi aparılıb.

# *Leyla ABDULLAYEVA:* "Beynəlxalq insan hüquqları təşkilatlarını üçtərəfli Bəyanatın həyata keçirilməsini dəstəkləməyə çağırırıq"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2007-ci il 18 iyun tarixli Sərəncamı ilə Ümummilli Lider Heydər Əliyev tərəfindən 1998-ci il iyunun 18-də Azərbaycan Respublikasında ilk "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq edildiyi və insan hüquqlarının təmin olunmasının dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edildiyi nəzərə alınaraq, hər il iyunun 18-i Azərbaycan Respublikasında İnsan hüquqları Günü kimi qeyd olunur.

Əvvəla vurğulamaq istərdik ki, Azərbaycan bütün insan hüquqları və əsas azadlıqlarının universallıq, qarşılıqlı bağlılıq və bölünməzlik prinsiplərinə sadiqdir. 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiya ölkəmizdə insan hüquqları və əsas azadlıqların təmin olunmasını dövlətin ali məqsədi kimi müəyyən etmişdir. Sənədin "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" fəsli insan hüquqlarının geniş dairəsini əhatə edən 48 maddəni özündə əks etdirir.

Bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva insan hüquqlarının qorunması və təşviq edilməsi sahəsində Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığı ilə bağlı KİV-in sualını cavablandırarkən deyib.

Leyla Abdullayeva bildirib: "Bildiyiniz kimi, ölkəmiz insan hüquqları sahəsində əsas beynəlxalq hüquqi sənədlərə tərəfdir. İnsan hüquqları sahəsində əsas beynəlxalq sənədlərə qoşulmaqla yanaşı, Azərbaycan onlardan irəli gələn müddəaların həyata keçirilməsi istiqamətində beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir. Bu təşkilatların sırasında BMT-nin insan hüquqlarının təşviqi və müdafiəsi sahəsində fəaliyyət göstərən müqavilə əsaslı qurumları, ATƏT, Avropa Şurası və Avropa İttifaqı mühüm yer tutur.

İnsan hüquqlarının və əsas azadlıqların qorunması və təşviq edilməsi Azərbaycan hökumətinin gündəmindədir. Hazırda ölkəmiz ərazilərinin 30 ilə yaxın davam edən işğaldan azad olunması nəticəsində məcburi köçkünlərin doğma torpaqlarına təhlükəsiz və layiqli qayıdış hüququnun, bu şəxslərin sosial, iqtisadi, mədəni hüquqlarının, işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən media nümayəndələrinin peşə fəaliyyətlərini maneəsiz yerinə yetirə bilmələri ilə bağlı söz azadlıqlarının təmin olunması kimi çağırışlarla üzləşir. Bu xüsusda bir daha beynəlxalq insan hüquqları təşkilatlarını bölgədə yaxşı qonşuluq münasibətlərinin bərpasına yönəlmiş 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən imzalanmış üçtərəfli Bəyanatın həyata keçirilməsini dəstəkləməyə, insan hüquqları və əsas azadlıqlarına seçkili münasibət sərgiləməkdən yayınmağa çağırırıq".

# *Adil ƏLİYEV:* "Qarabağ münaqişəsinin həlli regiona yeni inkişaf vəd edir"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Şuşa Bəyannaməsini imzaladıqdan bir gün sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Milli Məclisdəki çıxışı tarixi əhəmiyyət daşıdı. Çıxışın əsas xəttini prezidentlərin dostluğu, ölkələrimizin qardaşlığı, habelə münasibətlərimizdəki mehribanlıq təşkil edir. Bu, ölkələrimizi sevməyənlərə, o cümlədən Ermənistana və onun havadarlarına açıq mesaj idi. Prezident Rəcəb Tayyib Ərdoğan ölkələrimiz arasındakı qardaşlığı xüsusi vurğulayaraq, Türkiyənin bundan sonra da Azərbaycanın yanında olacağını vurğuladı.**



Bu fikirləri Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev söyləyib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz tərəfindən həyata keçirilən və şanlı tariximizin ən böyük hadisələrindən biri olan Vətən müharibəsində qazandığımız Zəfər münasibətilə bir daha xalqımızı təbrik etdiyini bildirən Milli Məclis Sədrinin müavini deyib: "Qardaş Türkiyə dövlətinin başçısı bu Zəfərin xalqımızın Prezident İlham Əliyevin ətrafındakı sıx birliyi, vəhdəti nəticəsində qazanıldığını, dünya tarixində son dövrlərdə əldə edilmiş ən böyük qələbənin olduğunu bildirdi. Eyni zamanda qazanılmış Qələbənin geosiyasi üstünlüklərinə toxunan Türkiyə Prezidenti bununla da bölgədəki münaqişənin tamamilə aradan qalxdığını, tarixi torpaqlarımızın işğaldan azad edilməklə yanaşı, sülhün də bərqərar olduğunu, gələcəkdə münasibətlərimizin daha da möhkəmləndirilməsinin zəruriliyini qeyd etdi".

Adil Əliyev bildirib ki, Türkiyə Prezidenti Ermənistanın apardığı təcavüzkar siyasətin daha çox onun özünə ziyan vurduğunu bildirərək, bundan sonra həyata keçiriləcək nəqliyyat kommunikasiya layihələrinin bu ölkənin də maraqlarına uyğun olacağını, Zəngəzur dəhlizindən keçəcək dəmir yolu xətti ilə Ermənistanın birbaşa olaraq Rusiyaya çıxış əldə edəcəyini diqqətə çatdırdı. Türkiyə Prezidentinin regionun inkişafı üçün irəli sürdüyü altıtərəfli əməkdaşlıq formatı Türkiyə, Azərbaycan, İran, Rusiya, Ermənistan və Gürcüstanı birləşdirən yeni platforma olmaqla, bölgədə inkişafın əsas xəttini təşkil edəcək. Üstəlik, bütün bu proseslər Azərbaycanla yanaşı, Ermənistan üçün də yeni dövrün başlanğıcıdır.

"Ermənistan əzəli və əbədi torpaqlarımızı uzun müddət işğal altında saxlayaraq, dədə-baba yurdumuzu istismar etdi. Həyata keçirdikləri vandalizm siyasəti nəticəsində tarixi abidələrimiz talan olundu, məhv edilərək dağıdıldı. Ermənistanın beynəlxalq humanitar hüququn bütün prinsiplərini kobud şəkildə pozduğunu, barbar siyasət yürütdüyünü dünya birliyi görür. Son 30 ildə Ermənistanın işğal altındakı torpaqlarımızda apardığı bu qəddar siyasət bu ölkə hakimiyyətinin təcavüzkarlıq siyasətinin ən əsas xəttidir. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Milli Məclisdə çıxışı zamanı səsləndirdiyi kimi: "Azərbaycanlılar otuz il əvvəl Qarabağdan çıxmaq məcburiyyətində qalanda heç bir yeri dağıtmadılar, heç bir evi yandırmadılar. Çünki insan öz Vətənini dağıda bilməz, öz Vətənini yandıra bilməz. Mədəniyyət ilə vandallıq arasındakı fərqi görmək istəyən gəlsin Qarabağda iki dönəm arasındakı fərqə baxsın", - deyə Milli Məclis Sədrinin müavini qeyd edib.

Qardaş ölkənin dövlət başçısı çıxışında Şuşanın zəngin tarixə malik, habelə musiqinin, ədəbiyyatın, incəsənətin ən yüksək səviyyədə yaşadıldığı şəhər olmasına toxunaraq, onun təkcə Azərbaycanın deyil, eləcə də Türk dünyasının tarixində mühüm yeri olan ədiblərin yetişdiyi şəhər olduğunu xüsusi diqqətə çatdırıb.

"Qarabağ münaqişəsinin həlli regiona yeni inkişaf vəd edir. Artıq işğaldan azad edilmiş ərazilərdə sürətlə abadlıq, quruculuq işləri davam edir, ölkəmizə dost olan ölkələrin, xüsusilə də qardaş Türkiyənin bu sahədə göstərəcəyi xidmətlər hər birimizi sevindirir. Türk şirkətlərinin abadlıq-quruculuq prosesinə verəcəyi dəstək qardaşlığımızın daha bir sübutudur", - deyə A.Əliyev bildirib.

***R.CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Əlillik orqanizmin funksiyalarının pozulması faizinə əsasən müəyyənləşdiriləcək

**İyunun 18-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında 11 məsələyə baxılıb.**



Əsasən əlilliyin təyinatında yeni meyarlara keçid və əmək pensiyaları ilə əlaqədar olan qanun layihələrinin müzakirəsində Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, Milli Məclis Sədrinin müavini Adil Əliyev, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, parlamentin 8 komitəsinin sədrləri və müavinləri, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin təmsilçiləri iştirak ediblər.

Öncə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev gündəlikdəki məsələlər barədə məlumat verib. Üçüncü oxunuşda müzakirəyə çıxarılmış "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunda dəyişiklik edilməsi haqqında qanun layihəsini şərh edib, plenar iclasda ikinci oxunuş zamanı deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirib.

İclasda Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev təmsil etdiyi nazirliyin tibbi-sosial ekspertiza və reabilitasiya sahəsində həyata keçirdiyi islahatlardan danışıb. Bildirib ki, əlillik təyinatlarında sosial ədalət, ünvanlılıq və şəffaflığın təmin olunması, haqqı çatan şəxslərin əlillik statusunun düzgün təmin edilməsi, saxta əlillik təyinatının qarşısının alınması vacib sayılır.

Deputatların nəzərinə çatdırılıb ki, son 3 ildə "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanun qəbul edilib və onun tətbiqi ilə bağlı 18 normativ-hüquqi akt hazırlanaraq təsdiqlənib. Beynəlxalq təşkilatlar və ekspertlərlə birlikdə "Əlilliyin müəyyən olunması meyarları" işlənib hazırlanıb. Yeni meyarların tətbiqi ilə əlaqədar 11 Məcəllə, 50 qanun daxil olmaqla, ümumilikdə, 100-ə yaxın normativ hüquqi akta dəyişiklik paketi hazırlanaraq təqdim edilib.

Qeyd olunub ki, hazırda əlillik şəxsin kimliyi və səhiyyə müəssisəsi barədə məlumatların kodlaşdırıldığı 88 saylı forma üzrə göndərişlər əsasında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin bölmələri tərəfindən qiymətləndirilir. Əzaların amputasiyası, sağalması mümkün olmayan ağır xəstəliklər kimi geridönməz hallarda şəxsin əlilliyi ömürlük müəyyən olunur və onun təkrar müayinəsinə ehtiyac qalmır. Göndərişlər natamam tərtib olunduğu, həmçinin əlillik təyinatına əsas verməmiyi hallarda isə təyinatdan imtina edilir.

Nazir müavini bildirib ki, əlilliyin qiymətləndirilməsi prosesinin təkmilləşdirilməsi məqsədilə struktur dəyişiklikləri aparılıb və müxtəlif xəstəliklər üzrə yeni 5 ixtisaslaşdırılmış TSEK, 20 regional TSEK yaradılıb. Əmək funksiyalarının icrasında nöqsanlara yol vermiş əməkdaşlar barəsində intizam tənbeh tədbirləri görülüb. 88 saylı forma üzrə göndərişlərdə saxtalaşdırma faktları aşkarlandığına görə 266 nəfərə dair məlumatlar hüquqi qiymət verilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna təqdim edilib.

Vətən müharibəsi ilə bağlı görülmüş işlər barədə də geniş məlumat verən Anar Əliyev bildirib ki, müzakirəyə təqdim olunan qanun layihələri qəbul edildikdən sonra Nazirlər Kabineti tərəfindən yeni "Əlilliyin müəyyən olunması meyarları" təsdiq ediləcək. Əlillik orqanizmin funksiyalarının pozulması faizinə əsasən müəyyənləşdiriləcək. Bu isə nəticə etibarı ilə əlillik təyinatlarında beynəlxalq təcrübənin və standartların tətbiqinə, xidmət keyfiyyətinin və vətəndaş məmnunluğunun yüksəldilməsinə səbəb olacaq.

Komitə iclasında qanun layihəsi ətrafında müzakirələrdə Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, Milli Məclis Sədrinin müavini Adil Əliyev, Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, deputatlar Vahid Əhmədov, Aqil Abbas, Fəzail Ağamalı, Əli Məsimli, Məlahət İbrahimqızı çıxış edərək bir sıra mühüm məqamlara diqqət yönəldiblər. Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev deputatların suallarını cavablandırıb.

Sonra komitə sədri Musa Quliyev bildirib ki, gündəlikdəki növbəti 6 qanun layihəsindəki (üçüncü oxunuş) dəyişikliklər də "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunda edilən dəyişikliklərlə əlaqədar olub uyğunlaşdırma xarakteri daşıyır.

Fikir mübadiləsindən sonra komitə bir sıra qanunlarda dəyişiklik edilməsi (üçüncü oxunuş) barədə qanun layihələrini Milli Məclisin plenar iclasına tövsiyə edib.

Komitə iclasında gündəlikdəki növbəti 4 məsələ barədə Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev ətraflı məlumat verib. "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş), "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş), "Məşğulluq haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini və "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) şərh edib.

Müzakirələrdə deputatlar Vüqar Bayramov, Jalə Əliyeva, Soltan Məmmədov, Arzu Nağıyev, Sevinc Hüseynova, Əziz Ələkbərov, Məlahət İbrahimqızı rəy və təkliflərini bildiriblər.

Əmək və sosial siyasət komitəsində baxılan bütün qanun layihələri Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə olunub.

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***

# Niderland parlamentinin Azərbaycana qarşı çoxsaylı qətnamələr qəbul etməsi heç bir çərçivəyə sığmır

İyunun 18-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin iclası keçirilib. İclasda əvvəlcə Niderland Krallığı ilə ikitərəfli münasibətlərə dair müzakirələr aparılıb.

Tədbiri açan Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycan və Türkiyə prezidentləri tərəfindən imzalanmış Şuşa Bəyannaməsi ilə bağlı komitə üzvlərini təbrik edib. Bəyannamənin Azərbaycan və Türkiyə əməkdaşlığında yeni səhifə açdığını, regionun tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verəcəyini, ümumilikdə, beynəlxalq mühitə ciddi təsir göstərəcəyini vurğulayıb. Səməd Seyidov regionda sülhün və əmin-amanlığın, iqtisadi yüksəlişin, kommunikasiyaların açılması ilə bağlı yaranan yeni imkanları dəstəkləmək əvəzinə, bölgəni yenidən xaosa, qarşıdurmaya sürükləyən addımlara təşəbbüs edən qüvvələrin də mövcud olduğunu təəssüflə bildirib. Qeyd edib ki, Niderland parlamenti, xüsusən onun Xarici əlaqələr komitəsi tərəfindən 2020-ci ilin yayından etibarən qəbul edilən qətnamələr beynəlxalq hüquqla zidd, qərəzli və birtərəfli qaydada Azərbaycana qarşı sanksiyaların tətbiqinə çağırmaqla bölgədə yaranan həssas sülhü və təhlükəsizliyi təhdid altına alır. Niderland parlamentinin sərgilədiyi mövqeyə ciddi cavab verilməsinin zəruriliyindən danışan komitə sədri deputatları bu istiqamətdə rəy və təkliflərini bildirməyə dəvət edib.

Azərbaycan-Niderland parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eldar Quliyev çıxışında vurğulayıb ki, Milli Məclis tərəfindən bu məsələ ilə bağlı Niderland parlamentinə çoxsaylı müraciətlər, məktublar, dialoq təklifləri ünvanlanıb, lakin qarşı tərəf heç bir reaksiya verməyib, hansısa fikir mübadiləsindən yayınıb.

Müzakirələrdə söz alan deputatlar Niderland parlamentinin az bir zaman kəsiyində Azərbaycana qarşı birtərəfli mövqe tutaraq çoxsaylı qətnamələr qəbul etməsinin artıq heç bir çərçivəyə sığmadığını, Azərbaycan və Niderland Krallığı arasında mövcud olan münasibətləri ciddi zədələdiyini bildiriblər.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi sədrinin müavini Sevinc Fətəliyeva, komitə üzvləri Asim Mollazadə, Rasim Musabəyov, Elman Nəsirov, Nigar Arpadarai, Sahib Alıyev, Nəsib Məhəməliyev, Kamran Bayramov, Azər Kərimli, Sevil Mikayılova Niderland parlamentinin Azərbaycana və Türkiyəyə qarşı bu ədavətini qınayıblar və buna qarşı müəyyən tədbirlərin görülməsi ilə bağlı fikirlərini diqqətə çatdırıblar.

Müzakirələrə yekun vuran Səməd Seyidov deputatların səsləndirdikləri fikirləri ümumiləşdirərək Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi adından bir sənədin hazırlanmasını, müzakirələrdə səsləndirilən fikirlərin bu sənəddə əks olunaraq çağırış və tövsiyələr şəklində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin, dünya dövlətlərinin, türk və İslam dünyasının, Niderland parlamentinin və hökumətinin diqqətinə çatdırılmasını təklif edib. Təklif qəbul edilib.

Sonra komitə üzvləri gündəlikdəki "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Sosial sığorta haqqında", "Polis haqqında", "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında", "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında", "Sığorta fəaliyyəti haqqında", "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" və "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuşda) nəzərdən keçiriblər. Onlar qanun layihəsini Milli Məclisin plenar iclasında üçüncü oxunuşda baxılmaq üçün tövsiyə ediblər.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Enerji resurslarından səmərəli istifadənin qanunvericilik bazası yaradılır

İyunun 18-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin iclası keçirilib. Komitə sədri Sadiq Qurbanov bildirib ki, gündəliyə "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının qanun layihəsi birinci oxunuşda daxil edilib.

Qeyd edilib ki, sənəd qanunvericilik təşəbbüsü qaydasında ölkə Prezidenti tərəfindən Milli Məclisə təqdim olunub.

Qanun layihəsi barədə Energetika Nazirliyinin Elektroenergetika və enerji səmərəliliyi şöbəsinin müdiri Ələsgər Həsənov məlumat verib. Diqqətə çatdırılıb ki, qanun enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət siyasətinin hüquqi, təşkilati və iqtisadi əsaslarını müəyyən edir, bu sahədə dövlət orqanlarının, fiziki və hüquqi şəxslərin fəaliyyətini və onlar arasında yaranan münasibətləri tənzimləyir.

8 fəsil, 23 maddədən ibarət olan sənəddə enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət siyasətinin əsas məqsədi və dövlətin vəzifələri göstərilib, enerji effektivliyi üzrə xidmətlərin təşkili və təşviqinə dair məqamlar, istehlak olunan enerjinin hesablanması, istehsalı, saxlanması, ötürülməsi, paylanması və təchizatında səmərəlilik məsələləri öz əksini tapıb. Layihədə enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində informasiya təminatı və maarifləndirmə, beynəlxalq əməkdaşlıq, dövlət nəzarətinin həyata keçirilməsi ilə bağlı müddəalar ehtiva olunub.

Müzakirələr zamanı çıxış edən komitə sədrinin müavini Asim Mollazadə, komitə üzvləri Məşhur Məmmədov, Nəsib Məhəməliyev, İltizam Yusifov, Fatma Yıldırım, Naqif Həmzəyev qanun layihəsi barədə öz fikirlərini açıqlayıblar, qeyd və təkliflərini söyləyiblər.

İclasda iştirak edən energetika nazirinin müavini Samir Vəliyev, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidentinin müavini Nüsrət Əliyev, "Azərenerji" ASC-nin Aparat rəhbəri Vüqar Əliyev və digər mütəxəssislər qanun layihəsinin əhəmiyyəti barədə danışıblar, enerji resurslarının istehsalı və istehlakı sahəsində effektivliyin artırılması, ekoloji mühitin yaxşılaşdırılması ilə bağlı məsələlərdən bəhs ediblər. Bildirilib ki, müzakirəyə çıxarılan qanun layihəsi bu istiqamətdə ölkədə həyata keçirilən islahatlar çərçivəsində önəmli rol oynayacaq.

İclasda komitə üzvləri Afət Həsənova, Anar Məmmədov, Əliabbas Salahzadə, Mixail Zabelin iştirak ediblər.

Tədbirin sonunda "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Naxçıvanda Külək-Günəş Hibrid Elektrik Stansiyası istifadəyə verilib

Muxtar respublikada enerji təhlükəsizliyi ilə bağlı həyata keçirilən tədbirləri yüksək qiymətləndirən dövlət başçısı cənab İlham Əliyev deyib: "Vaxtilə Naxçıvanda işıq yox idi, enerji yox idi. Azərbaycandan gələn xətlər də Ermənistan tərəfindən kəsilmişdi. İndi isə Naxçıvan özünü elektrik enerjisi ilə tam təmin edir və bərpa olunan mənbədən istifadə edir. Bu, çox önəmlidir. Çünki bu, Naxçıvanın gözəl təbiətinə və ekoloji vəziyyətinə töhfə kimi qəbul edilməlidir".



Muxtar respublikanın iqlim şəraiti alternativ və bərpa olunan enerjidən istifadə üçün geniş imkanlar açır. Müasir energetika infrastrukturunun yaradılması və enerji təhlükəsizliyinin təmin olunmasında bu amil əsas götürülür, külək, günəş elektrik stansiyaları tikilərək istifadəyə verilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyunun 18-də Culfa rayonunda yeni Külək-Günəş Hibrid Elektrik Stansiyası istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev məlumat verərək deyib ki, 2019-cu il avqustun 26-da Bakı şəhərində Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti ilə Çin Xalq Respublikası Ticarət Nazirliyi arasında Naxçıvan Muxtar Respublikasına mobil elektrik stansiyalarının verilməsi haqqında imzalanmış müqaviləyə əsasən Naxçıvan Muxtar Respublikasına 2 dəst 200 kilovat gücündə "İSUZU" markalı dizel generator maşını, 410 dəst 2 kilovat gücündə mobil günəş elektrik stansiyası, 410 dəst günəş suqızdırıcısı, 6 dəst 10 kilovatlıq Külək-Günəş Hibrid Elektrik Stansiyası qurğusu verilib. Naxçıvan Dövlət Universitetində elektroenergetika ixtisası üzrə təhsil alan tələbələrin biliklərinin təcrübə ilə daha dərindən mənimsəmələri, yeni texnologiyalarla yerində tanış olmaları üçün universitet şəhərciyində 1 ədəd 10 kilovat gücündə "Külək-Günəş Hibrid Elektrik Enerjisi Mənbəyi" və 1 dəst günəş suqızdırıcısı quraşdırılıb. Digər 5 dəst külək turbinlərinin və günəş panellərinin təyinatları dəyişdirilərək Culfa rayonunun Gülüstan kəndi yaxınlığında 3,3 hektar ayrılmış əkinə yararsız ərazidə komplektləşdirilərək 1,1 meqavatlıq yeni Külək-Günəş Hibrid Elektrik Stansiyası tikilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Külək-Günəş Hibrid Elektrik Stansiyasının istifadəyə verilməsi münasibətilə istehlakçıları təbrik edib, stansiyanın qurulmasında əməyi olanlara təşəkkür edərək deyib: "Muxtar respublikanın ərazisində ilk dəfə olaraq Külək-Günəş Hibrid Elektrik Stansiyası istifadəyə verilir. Hər bir ölkənin inkişafının əsas göstəricisi enerji təhlükəsizliyinin təmin olunmasıdır. Bu gün muxtar respublikanın inkişafının əsas hərəkətverici qüvvəsi elektrik enerjisinə olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsidir. Enerji harada varsa, orada inkişaf var, həyat var. Hazırda muxtar respublikada elektrik enerjisinə olan tələbatın 50 faizdən çoxu bərpa olunan enerji mənbələri hesabına ödənilir. Bu da imkan verir ki, həm əhalinin, həm də sənayenin və iqtisadiyyatın digər sahələrinin enerji təminatı davamlı olsun. Həmçinin Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin ucuz qiymətə elektrik enerjisi istehsal etməsi imkan verəcək ki, gələcəkdə elektroenergetika sahəsi daha da inkişaf etdirilsin. Culfa rayonunun ərazisi həm küləkli, həm də günəşlidir. Sınaq məqsədilə yaradılan elektrik stansiyası gələcəkdə növbəti külək elektrik stansiyalarının qurulması üçün əsas verəcəkdir".

Ali Məclisin Sədri yeni qurulacaq Culfa yarımstansiyasının layihəsinə baxıb və işlərə başlanılması barədə tapşırıq verib.

❖ ❖ ❖

Həmin gün Ali Məclisin Sədri Culfa rayonunun Yaycı kəndinin içməli su təminatının yaxşılaşdırılması ilə bağlı layihənin hazırlanması barədə tapşırıq verib.



# "Anadolu Qartalı-2021" beynəlxalq təliminə hazırlıq brifinqi təqdim olunub

Türkiyənin Konya şəhərindəki aviabazada müxtəlif ölkələrin hərbçilərinin iştirakı ilə "Anadolu Qartalı-2021" beynəlxalq taktiki-uçuş təlimi iyunun 21-də başlayacaq.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə təlimin planlaşdırılması, ona hazırlıq prosesi, gedişi və mərhələlər üzrə icra edilən tapşırıqlar barədə ətraflı brifinq təqdim olunub.

"Anadolu Qartalı-2021" beynəlxalq taktiki-uçuş təlimində Azərbaycan HHQ-nin 2 "MiQ-29" qırıcı və 2 "Su-25" hücum təyyarəsi iştirak edəcək.



# Qarabağ bir millət, iki dövlətin Zəfər meydanıdır



# Qardaşlığın və birliyin təntənəsi

## Müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan-Türkiyə münasibətlərinə yeni məzmun gətirən böyük siyasi və tarixi hadisədir

*Əvvəli 1-ci səh.*

Azərbaycan dövləti və xalqı üçün əlamətdar olan bir gündə - iyunun 15-də Şuşa şəhərində imzalanan Türkiyə ilə Azərbaycan arasında müttəfiqlik haqqında Bəyannamə isə Qarabağ zəfərindən sonra qazanılan növbəti tarixi uğur oldu. İkinci Qarabağ savaşındakı qalibiyyətdə olduğu kimi, bu Bəyannamənin də müəllifləri Azərbaycan və Türkiyədir. Qardaş dövlətlərin liderləri - İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan bu Bəyannamə ilə mövcud əlaqələri və əməkdaşlığı yeni mərhələyə yüksəltdilər.

Öncə onu qeyd edək ki, Azərbaycana səfər edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın işğaldan azad olunmuş Şuşaya getməsi, iki dövlət başçısının məhz burada görüşməsi son dövrlərin ən mühüm siyasi hadisəsi oldu. Bu səfər, ilk növbədə, Azərbaycan-Türkiyə qardaşlığını bir daha dünyaya bəyan etdi. Ona görə də bu səfər həm də türk dünyasının böyük siyasi uğuru oldu, dostlarımızı sevindirdi, düşmənin bağrına xəncərtək sancıldı. Prezident İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın Şuşada görüşü, dövlət başçılarının Heydər Əliyev Fondunun təşkil etdiyi "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" adlı musiqili kompozisiyada iştirak etmələri, "Xan qızı" bulağına getmələri, Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin heykəllərini ziyarət, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın və Türkiyənin birinci xanımı Əminə Ərdoğanın görüşü Azərbaycan-Türkiyə qardaşlığının növbəti təcəssümləri oldu.

Şuşada keçirilən hər bir tədbir isə həm də düşmənə verilən açıq mesajlar kimi tarixə düşdü: Azərbaycan və Türkiyə Qarabağ müharibəsində olduğu kimi, bundan sonra da bir-birilərinə ən yüksək səviyyədə dəstək verəcəklər.

### İlham ƏLİYEV: "Müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır"

Dünyada Azərbaycan və Türkiyə kimi sıx əlaqələrə malik başqa iki dövlət göstərmək mümkün deyil. Azərbaycan-Türkiyə münasibətlərinin analoqu yoxdur. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları ilə xarakterizə olunan Azərbaycan-Türkiyə münasibətləri bütün sahələri əhatə edən olduqca yüksək səviyyədədir. Hətta bu gün Azərbaycan və Türkiyə vətəndaşları yalnız şəxsiyyəti təsdiq edən vəsiqələrlə qarşılıqlı səfər etmək imkanına malikdirlər.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış Şuşa Bəyannaməsi isə Azərbaycan-Türkiyə münasibətlərində yeni səhifə açdı. Prezident İlham Əliyevin dediyi kimi, müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır: "Əziz qardaşım Azərbaycanda dəfələrlə olub, ancaq biz ilk dəfə Qarabağ torpağında - Şuşada bir yerdəyik. Bu səfərin tarixi əhəmiyyəti var. Çünki bu gün imzalanmış birgə Bəyannamə - Müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır. Bəyannamənin adı Müttəfiqlik haqqında Bəyannamədir və bu ad özü-özlüyündə hər şeyi göstərir, hər şeyi deyir. Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu Bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək iş birliyimizin təminatçısıdır".

Sənədə əsasən Azərbaycan və Türkiyənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsi, eləcə də müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərinin qarşılıqlı şəkildə əlaqələndirilməsi hər iki ölkənin regional və beynəlxalq rolunu və çəkisini daha da artıracaq.

Bəyannamədə birgə milli mənafelər baxımından siyasi, hərbi və təhlükəsizlik sahələrində əlaqələndirilmiş fəaliyyətlərin təşviq edilməsi xüsusi yer tutur. Ən vacib məqam isə ondan ibarətdir ki, tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə birgə müdafiə addımları atılacaq. Qeyd edək ki, indiyədək iki ölkə arasında strateji müttəfiqlik münasibətlərini müəyyənləşdirən dövlətlərarası sənədlər imzalanıb. Şuşa Bəyannaməsi isə bütün bu sənədlərin zirvə nöqtəsidir və iki dövlət arasında həm siyasi, həm də hərbi müttəfiqliyə yeni məzmun gətirir.

Rəsmi Bakı və Ankaranın dünyaya verdiyi əsas mesajlardan biri 44 günlük müharibədən sonra bölgədə yaranan yeni əməkdaşlıq imkanlarından yararlanmaq çağırışıdır. Hər iki ölkə bundan sonra bütün imkanlarını Cənubi Qafqazı sülh regionuna çevirmək istiqamətinə yönəldəcək. Azərbaycan və Türkiyə bütün region dövlətlərini bu əməkdaşlıq prosesində görmək istəyir. Bu baxımdan regiondakı yeni reallıqlar həm də onu göstərir ki, işğal siyasəti dəmir yumruqla darmadağın edilən Ermənistanın bu çağırışlara qoşulmaqdan başqa yolu yoxdur.

Müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan-Türkiyə münasibətlərinə yeni məzmun gətirən böyük siyasi və tarixi hadisədir. Qədim şəhərimiz olan Şuşada imzalanan bu sənəd iki dövlətin birliyinin əbədi olduğunu dünyaya bəyan etdi, onların qardaşlığının təntənəsi oldu.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Vahid hədəf, bir məqsəd

## Yeni mərhələyə qədəm qoyan Azərbaycan-Türkiyə müttəfiqliyi müharibə üçün deyil, sülhə səy göstərir

*Əvvəli 1-ci səh.*

### Rəcəb Tayyib Ərdoğanın çıxışında bütün dünyaya çağırış vardı

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Sahib Alıyev hesab edir ki, Ərdoğanın Azərbaycan parlamentində hər kəsin ürəyindən xəbər verən məzmunlu çıxışını Şuşa Bəyannaməsinin təqdimatı kimi də qiymətləndirmək olar. Çünki Ərdoğanın çıxışının əsas hissəsi məhz həmin Bəyannamədə əksini tapan məqamlarla bağlıydı. Türkiyə Prezidenti Azərbaycan parlamenti qarşısında çıxış etsə də, onun çıxışında bu auditoriyadan daha çox region dövlətlərinə, xalqlarına və bütün dünyaya çağırış vardı. Bu, həm də yalnız Türkiyənin deyil, regionda güc mərkəzi formalaşdırmağı bacarmış iki qardaş dövlətin çağırışı idi. Bu, ilk növbədə, sülh və qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq çağırışı idi ki, onun da əhatə etdiyi niyyətin reallaşdırılmasına bizim güc potensialımız yetir. Əgər bu çağırış adekvat qiymətləndirilsə, Ermənistan da daxil olmaqla, regionda hər kəs, regiondan kənarda da bir çoxları əməkdaşlıqdan fayda götürəcək. Nəzəri dildə desək, Türkiyə Prezidentinin çıxışının "loqos hissə"si məhz bundan ibarət idi.

Deputat ümid edir ki, ermənilər də, havadarlıq adı altında onlardan geosiyasi niyyətləri üçün faydalananlar da bu çıxışdan düzgün nəticə çıxarmalıdırlar: "Biz torpağımızı tar-mar edən, onun altını üstünə çevirən, daş üstə daş qoymayanlara əməkdaşlıq təklif edirik. Elə bir əməkdaşlıq ki, onlar bunun hesabına indiki kimi it damına bənzər daxmalarda yaşamaqdan, ona-buna əl açmaqdan qurtara bilərlər. Bunu da bizə düşmənçilik edənlərə böyük sevgi bəslədiyimiz üçün etmirik. İstəmirik ki, kimlərsə yenə onlardan təsir aləti kimi faydalanaraq burada qarşıdurma atmosferi formalaşdırsınlar. Bizə dayanıqlı sülh lazımdır, çünki bu halda inkişafımız daha da sürətlənəcək".

### Dünya gücləri münaqişənin bitməsinə razıdırlar

Sahib Alıyevin fikrincə, Rəcəb Tayyib Ərdoğan çıxışında Şuşaya NATO sammitində iştirakdan, orada bir sıra müsbət görüşləri keçirdikdən sonra gəldiyini elə-belə xatırlatmadı.

Onun sözlərinə görə, son vaxtlara qədər NATO-nun əksər zirvə görüşlərində keçmiş Dağlıq Qarabağ münaqişəsinin mövcud Minsk formatı çərçivəsində həllinin vacibliyi vurğulanırdı: "Artıq vurğulanmır, demək, dünya gücləri də İlham Əliyevin münaqişənin bitməsi fikriylə razıdırlar. Yeri gəlmişkən, Bayden-Putin görüşündə də bununla bağlı hər hansı bir açıqlamanın olmaması bizim üçün önəmlidir".

Sahib Alıyev nəzərə çatdırır ki, Ərdoğan parlamentdəki çıxışında 44 günlük savaşdakı qələbəmizdən danışarkən burada birinci Müzəffər Ali Baş Komandanımızın, sonra xalqımızın, ordumuzun rol oynadığını vurğuladı.

Onun fikrincə, bu ardıcıllığın arxasında baş verənlərin dəqiq qiymətləndirilməsi dayanır. Aydındır ki, məhz Prezident İlham Əliyev bu xalqı "Dəmir yumruğa" çevirərək düşmənin belini sındırdı. Hər kəsə o da məlumdur ki, xalq vətəninə bağlıdır, himnində vurğulandığı kimi, onun üçün canından keçməyə hazır olmasa, onun ordusu 44 günlük savaşdakı kimi şücaət, peşəkarlıq və fədakarlıq göstərə bilməzdi.

### Şuşa Bəyannaməsi xoşmahiyyətlidir

Ərdoğanın Azərbaycana son səfəri zamanı tarixə düşən mühüm hadisə Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması oldu. Bu sənəd iki ölkə arasındakı əməkdaşlığın ən pik səviyyəsi hesab oluna bilər. Yalnız iki ölkənin mənafeyinə xidmət etməyən Şuşa Bəyannaməsi regionun inkişafına yönəlməklə yanaşı, onun təhlükəsizliyinə qarşı təhdid olarsa, qarşısının alınmasına hədəflənib.

Şuşa Bəyannaməsinin əhəmiyyətindən danışarkən, ilk növbədə, onun adına diqqət yetirməyi vacib sayan Sahib Alıyev də sənədin niyyətinin xoşmahiyyətli olduğunu açıqlayır: "Sirr deyil ki, Şuşa təkcə Azərbaycan üçün deyil, bütün region üçün mühüm strateji əhəmiyyəti olan yüksəklikdir. Bax bu yüksəklikdən iki qardaş dövlət bir güc mərkəzi kimi çıxış



edərək həmin Bəyannamə ilə öz məram və niyyətlərini ortaya qoydular. Bu niyyət bütün region üçün xoşmahiyyətlidir, çünki burada sülh təşviq edilir, qarşılıqlı faydaya dayanan əməkdaşlıq təklif olunur".

### Fors-major anlarda "bir millət, bir Silahlı Qüvvə" prinsipindən çıxış ediləcək

Sahib Alıyev hesab edir ki, Azərbaycan-Türkiyə müttəfiqliyi hər hansı bir üçüncü tərəfin əleyhinə yönəlməyib. Amma bununla yanaşı, orada vurğulanan niyyətlərin reallaşdırılmasına maneçilik törətməyə, regionda yenidən qarşıdurma yaratmağa, bulanıq suda balıq tutmağa cəhd edilərsə, onda bu məkrli davranışın arxasında olanlar öz qarşılarında iki ölkənin Silahlı Qüvvələrini görəcəklər. Bəyannamədə iki ölkənin hərbi-siyasi və hərbi-texniki əməkdaşlıqla bağlı ortaya qoyduqları mövqe məhz o deməkdir ki, fors-major anlarda "bir millət, bir Silahlı Qüvvə" prinsipindən çıxış ediləcək. Bəyannamədə iki dövlətin Təhlükəsizlik Şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclaslarının keçiriləcəyi də təsadüfi vurğulanmır.

Söhbət Müdafiə Nazirliyi, Ordu rəhbərliyinin birgə iclaslarından deyil, başında Prezidentlərin durduğu Təhlükəsizlik Şuralarının toplantılarından, davamlı olaraq keçiriləcək iclaslardan gedir: "Beynəlxalq Bəyannamələrdən fərqli olaraq, iki dövlət arasındakı bəyannamədə tərəflər üzərlərinə öhdəlik götürmür, məram və niyyətlərini ifadə edirlər, yəni bu, müqavilə deyil. Fəqət birincisi, onu deməliyik ki, indiyədək rəsmi sənədlərdə vurğulanan elə bir niyyət və məramımız olmayıb ki, o reallaşdırılmasın. İkincisi, burada hazırda yaranmış reallıq fonunda bizim üçün ən mühüm olan hərbi müttəfiqlik yönündə indiyədək çox önəmli addımlar atılıb, həmin addımların əsaslandığı müqavilə də var. Xatırladım ki, 2010-cu ilin 16 avqustunda "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə" imzalandı. Həmən ilin dekabrında Azərbaycan, 2011-ci ilin fevralında isə Türkiyə parlamentində ratifikasiya olundu. O müqavilə onillik idi və əgər tərəflərdən hansısa biri etiraz etməsə, onun növbəti 10 ildə də qüvvədə qalması nəzərdə tutulurdu. On il keçdi və göründüyü kimi həmin müqavilədə təhlükəsizlik və müdafiə ilə bağlı qarşılıqlı öhdəliklərin (23 maddədən ibarət müqavilənin 9 maddəsi məhz həmin sahələri əhatə edir) Şuşa Bəyannaməsində daha da genişləndirilməsi və dərinləşdirilməsi nəzərdə tutulur".

Sahib Alıyev qeyd etdi ki, sözügedən sənəddə çağdaş hərbi texnologiyaların birgə tədqiqat və istehsalı, hərbi təyinatlı məhsullar və xidmətlər sahəsində daxili və beynəlxalq bazarlarda əməkdaşlıq, kibertəhlükəsizliklə bağlı birgə elmi tədqiqat işləri, mütəxəssis hazırlığı, qarşılıqlı texniki dəstək kimi bəndlər var. Bütün bunlar isə təhlükəsizlik və müdafiə məsələlərində dərin inteqrasiya deməkdir.

### Rusiya ilə Ermənistan münasibətləri bərabərtərəfli əməkdaşlıq deyil

Deputatın sözlərinə görə, bəziləri Rusiya ilə Ermənistan arasında hərbi müttəfiqliyin daha dərin olduğunu qabartmağa çalışırlar. Amma onlar unudurlar ki, Azərbaycan-Türkiyə münasibətləri iki müstəqil, qardaş dövlətin münasibətləridir. Ermənistan isə vassal asılılığında olduğu gücün rəsmilərinin dilindən də dövlət yox, forpost ölkə adlandırılır. Ümumiyyətlə isə, vassalla süveren ölkə arasında müttəfiqlik olmur, birincinin ikinciyə tabeçiliyi olur.

Rusiyanın Ermənistanda hərbi bazasının olması fonunda Türkiyənin də Azərbaycanda belə bir bazasının yaranmasına ehtiyac duyulduğunu deyənlərə gəldikdə, Sahib Alıyevin fikrincə, belə şəxslər görünür ki, regionda nə baş verdiyini ya görmür, ya da gördüklərini dərk etmirlər: "Heç kimə sirr deyil ki, qardaş dövlətin Azərbaycanda hərbçiləri var və onların sayı məhz bizim ehtiyac duyduğumuz qədərdir. Qardaş dövlətin hərbçiləri, ilk növbədə, ona görə Azərbaycandadırlar ki, Prezident İlham Əliyevin də vurğuladığı kimi, biz öz ordumuzu Türkiyə Ordusu modeli üzərində qururuq. Xatırladım ki, İlham Əliyevin 20 iyul 2016-cı il fərmanı ilə Bakının Yasamal rayonundakı "Qızıl Şərq" hərbi şəhərciyində yerləşən bina və tikililər, Sumqayıt şəhərinin Hacı Zeynalabdin qəsəbəsindəki aerodromun bir terminalının binası Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətinin istifadəsi üçün ayrılıb. Qardaş ölkənin Ağdamda Türkiyə-Rusiya Birgə Mərkəzindəki hərbçilərinin varlığının da nə demək olduğunu xatırlatmağa ehtiyac yoxdur. Bir sözlə, türkiyəli hərbçilər ona görə Azərbaycandadır ki, bunu bizim maraqlarımız tələb edir. Rusiyanın Ermənistanda hərbi bazasının olması isə Moskvanın geosiyasi niyyətlərindən doğur, forpost burada subyekt yox, obyekt rolunda çıxış edir".

### Cəmiyyət öz dövlətinin, Prezidentinin yanındadır

Sahib Alıyevin sözlərinə görə, Şuşa Bəyannaməsində iki dövlət arasındakı əməkdaşlığın demək olar ki, bütün sahələrdə dərinləşdirilməsi nəzərdə tutulur. Bunun üçün də müəyyən vaxt çərçivəsində intensiv hazırlıqların aparılması tələb edilir. Məsələn, orada malların sərbəst dövriyyəsi məqamı yer alıb ki, istehsalatda önəmli dəyişikliklər olmadan bu, bir sıra problemlərə yol aça bilər. Bəyannamədə türk dünyasının inteqrasiyası, güclənməsi, türk dövlətləri arasında əməkdaşlığın daha da dərinləşməsi yönündə Azərbaycanla Türkiyənin birgə fəaliyyəti ilə bağlı çox önəmli, geosiyasi çəkisi çox böyük olan məqamlar da var.

Deputat hesab edir ki, buradakı məramın öhdəliyə çevrilməsi üçün vaxt və bütün türk dövlətlərinin liderlərinin İlham Əliyev, Rəcəb Tayyib Ərdoğan kimi dünyada baş verən, eyni zamanda baş verəcək dəyişiklikləri düzgün qiymətləndirmələri, vahid mövqe və iradə ortaya qoymaları lazım gələcək. Təkcə həmin dövlətlərin başçıları yox, cəmiyyət və oradakı siyasi elitalar da reallığı düzgün qiymətləndirməlidirlər: "Bu baxımdan yanaşıldıqda Azərbaycandakı 48 partiyanın Şuşa Bəyannaməsini alqışlaması, dəstək ifadə etməsi bizdə həm çağdaş dövrün tələblərinə uyğun siyasi mədəniyyətin formalaşdığını, həm də bütövlükdə cəmiyyətin öz dövlətinin, Prezident İlham Əliyevin yanında olmasının növbəti göstəricisidir. Unudulmamalıdır ki, o yerdə siyasi mədəniyyət yoxdursa, orada siyasi elita da yoxdur. Çünki obrazlı desək və geniş götürsək, elita ancaq mədəniyyət tarlasında yetişir".

### Şuşa Bəyannaməsi sülhü təşviq edir

Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyə arasındakı əməkdaşlıq münasibətlərinin ən pik səviyyəsi hesab edilə bilər. Bu sənəd 100 il əvvəl imzalanmış Qars müqaviləsinə əsaslansa da, ondan daha böyük formatlıdır. İqtisadi layihələr də daxil olmaqla, daha çox məsələlərin öz əksini tapdığı Bəyannamə iki ölkə arasında sıx olan əməkdaşlığı daha da dərinləşdirəcək.

Şuşa Bəyannaməsi iki ölkə arasındakı müttəfiqlik sənədidir. Amma bu sənəd müharibə istəmir, sülhü dəstəkləyir. Bunun üçün sənədi imzalayan hər iki tərəf - həm Azərbaycan, həm də Türkiyə səy göstərməyə hazırdır. Onlar regionun inkişafı, onun çiçəklənməsi, təhlükəsizliyinin təmini üçün birgə çalışmağa hazır olduqlarını da bəyan ediblər.

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, əhalinin aztəminatlı təbəqələrindən olan şəxslərin təhsilə əlçatanlığını təmin etmək, təhsil almaqda bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində "Təhsil Tələbə Krediti Fondu" (bundan sonra - Fond) yaradılsın.

2. "Təhsil Tələbə Krediti Fondunun Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Müəyyən edilsin ki:

3.1. Fond təhsil tələbə kreditlərinin verilməsini təşkil edən qeyri-kommersiya hüquqi şəxsidir;

3.2. təhsil tələbə kreditinin məbləğinin yuxarı həddi hər tədris ili üçün təsdiq edilən tələbə qəbulunda nəzərdə tutulmuş ayrı-ayrı ixtisaslar üzrə ödənişli əsaslarla təhsilalana düşən illik təhsil haqlarının məbləğindən çox olmamalıdır;

3.3. Fondun fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün ictimai əsaslarla fəaliyyət göstərən 7 (yeddi) üzvdən ibarət Himayəçilik Şurası yaradılır;

3.4. Fondun fəaliyyətinə cari rəhbərliyi 3 (üç) üzvdən - sədr və onun iki müavinindən ibarət İdarə Heyəti həyata keçirir;

3.5. Fondun fəaliyyətinin təşkili və təmin edilməsi xərcləri dövlət büdcəsinin vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

4. Fondda təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. Fondun nizamnaməsinin təsdiqi və nizamnamə kapitalının miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.1.2. Fondun idarəetmə orqanlarının yaradılması;

4.1.3. Fondun yenidən təşkili və ləğvi barədə qərar qəbul edilməsi;

4.2. Azərbaycan Respublikasının Təhsil Nazirliyinə:

4.2.1. bu Fərmanın 4.1-ci bəndi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş vəsait hesabına Fondun ilkin nizamnamə kapitalının formalaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.2. Fondun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi qaydasını bir ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə olunsun ki, Fondun vəsaiti hesabına verilmiş kreditlər üzrə müvəkkil kredit təşkilatlarının aktivlərinin risk qrupunu müəyyən etsin.

7. Azərbaycan Respublikasının Təhsil Nazirliyi:

7.1. "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə "Təhsil Tələbə Krediti" altsisteminin yaradılmasını təmin etsin;

7.2. Fondun dövlət qeydiyyatına alınması üçün bu Fərman qüvvəyə mindiyi gündən 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

7.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

8. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi, habelə ali, orta ixtisas və peşə təhsili müəssisələri Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nin sorğularının Elektron Hökumət İnformasiya Sistemi üzərindən cavablandırılmasını təmin etmək üçün bir ay müddətində zəruri tədbirlər görsünlər.

9. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, bu Fərmanın 8-ci hissəsində nəzərdə tutulmuş dövlət orqanlarının (qurumlarının) informasiya sistemlərinin və ehtiyatlarının Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nə inteqrasiyasını iki ay müddətində təmin etsin.

10. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən Nizamnamənin 4.1-ci bəndində nəzərdə tutulmuş maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyun 2021-ci il*

***Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir***

# Təhsil Tələbə Krediti Fondunun NİZAMNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. Təhsil Tələbə Krediti Fondu (bundan sonra - Fond) təhsil tələbə kreditlərinin verilməsini təşkil edən qeyri-kommersiya hüquqi şəxsidir.

1.2. Fond Azərbaycan Respublikası Təhsil Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyində fəaliyyət göstərir.

1.3. Fond öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.4. Fond öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən, dövlət və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.5. Fond ictimai faydalı məqsədlərə xidmət edən fəaliyyətlə məşğul olur. Fond bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.6. Fondun ayrıca əmlakı vardır və Fond öz öhdəliklərinə görə bu əmlakla cavabdehdir. Fondun müstəqil balansı, bank hesabları, üzərində öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.7. Fondun əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Fond məhkəmədə iddiaçı və ya cavabdeh, habelə üçüncü şəxs qismində çıxış edir.

1.8. Dövlət Fondun öhdəlikləri üçün cavabdeh deyildir və Fondun fəaliyyəti ilə bağlı zərərə görə nizamnamə kapitalındakı payı həddində risk daşıyır. Fond dövlətin öz üzərinə götürdüyü hər hansı öhdəliyə görə cavabdeh deyildir.

1.9. Fond Bakı şəhərində yerləşir.

### 2. Fondun fəaliyyətinin məqsədi, vəzifələri və hüquqları

2.1. Fondun fəaliyyətinin əsas məqsədi təhsil tələbə krediti sistemini tətbiq etməklə təhsilə əlçatanlığı təmin etməkdən, təhsil almaqda bərabər imkanlar yaratmaqdan və təhsilin əhatə dairəsini genişləndirməkdən ibarətdir. Fond əhaliyə birbaşa təhsil tələbə kreditlərinin verilməsi ilə məşğul olmur.

2.2. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət məqsədinə uyğun olaraq Fondun vəzifələri aşağıdakılardır:

2.2.1. təhsil tələbə kreditlərinin verilməsini təşkil etmək;

2.2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydaya uyğun olaraq təhsil tələbə krediti üçün müraciət etmiş tələbələrə kredit ayrılması barədə qərar qəbul etmək;

2.2.3. təhsil tələbə kreditinin maliyyələşdirilməsi məqsədilə müvəkkil bankla müqavilə bağlamaq və tələb olunan vəsaiti müqavilədə nəzərdə tutulmuş müddətdə müvəkkil banka köçürmək;

2.2.4. "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə "Təhsil Tələbə Krediti" altsisteminin fəaliyyətini təmin etmək;

2.2.5. təhsil tələbə kreditləşməsi sahəsində likvidliyin təmin olunması, Fondun fəaliyyətinin inkişaf etdirilməsi, səmərəliliyinin və etibarlılığının yüksəldilməsi məqsədilə investisiyaların cəlb olunması üçün tədbirlər görmək;

2.2.6. Fondun fəaliyyətində riskləri azaltmaq məqsədilə risklərin idarə edilməsi sistemini formalaşdırmaq və tətbiqini təmin etmək;

2.2.7. mülkiyyətindəki (balansındakı) əmlakdan səmərəli istifadə olunmasını təmin etmək;

2.2.8. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla fəaliyyətində elmi-texniki nailiyyətləri tətbiq etmək;

2.2.9. Fonda ayrılan büdcə vəsaitindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

2.2.10. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

2.2.11. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və həmin informasiyanın daim yenilənməsini təmin etmək;

2.2.12. Fondda kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

2.2.13. strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

2.2.14. fəaliyyətinin məqsədinə aid məsələlərlə bağlı islahatlar aparılmasına dair təkliflər hazırlayıb aidiyyəti üzrə təqdim etmək;

2.2.15. malların (işlərin və xidmətlərin) satın alınması üçün "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görmək;

2.2.16. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş tədbirlər görmək;

2.2.17. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

2.3. Fondun aşağıdakı hüquqları vardır:

2.3.1. fəaliyyətinin məqsədinə aid məsələlərlə bağlı normativ hüquqi aktların layihələrinin hazırlanmasına dair təkliflər vermək;

2.3.2. müqavilə əsasında ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

2.3.3. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla və xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları), hüquqi və fiziki şəxsləri ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

2.3.4. fəaliyyətinin məqsədinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

2.3.5. dövlət orqanlarına və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

2.3.6. fəaliyyətinin məqsədinə aid məsələlərlə bağlı analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq və təkliflər vermək;

2.3.7. fəaliyyət məqsədinə uyğun olaraq konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

2.3.8. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 3. Fondun idarə olunması

3.1. Fond öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

3.2. Fondun idarəetmə orqanları Himayəçilik Şurası və İdarə Heyətidir.

3.3. Fondun fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti Himayəçilik Şurası (bundan sonra - Şura) həyata keçirir.

3.4. Şuranın Azərbaycan Respublikası Təhsil Nazirliyinin (2 nəfər), Azərbaycan Respublikası Maliyyə Nazirliyinin (1 nəfər), Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (1 nəfər), Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (1 nəfər), Azərbaycan Respublikası Mərkəzi Bankının (1 nəfər) və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin (1 nəfər tələbə) nümayəndələrindən ibarət 7 (yeddi) üzvü vardır.

3.5. Şuranın üzvləri 3 (üç) il müddətinə təyin edilir və ictimai əsaslarla fəaliyyət göstərirlər. Şuranın üzvləri növbəti müddətə yenidən təyin edilə bilərlər.

3.6. Şuranın üzvlərini təmsil etdikləri orqanın (qurumun) rəhbəri təyin və azad edir.

3.7. Şuranın sədrini Nazirliyin Şurada təmsil edilən üzvləri arasından Azərbaycan Respublikasının təhsil naziri təyin edir.

3.8. Şuranın üzvləri Fondun digər orqanlarında təmsil oluna bilməzlər.

3.9. Bu Nizamnamə ilə Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası təhsil nazirinin səlahiyyətlərinə aid edilmiş məsələlər istisna olmaqla, Fondun fəaliyyəti ilə bağlı məsələlərə dair Şura qərar qəbul etməkdə müstəqildir.

3.10. Şura aşağıdakı vəzifələri yerinə yetirir:

3.10.1. Fondun strateji məqsəd və planlarını, inkişaf istiqamətlərini müəyyən edir;

3.10.2. Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla, standart və sosial təhsil tələbə krediti üzrə illik faiz dərəcələrini, habelə hər tədris ili üçün təsdiq edilən tələbə qəbulunda nəzərdə tutulmuş ayrı-ayrı ixtisaslar üzrə ödənişli əsaslarla təhsilalana düşən illik təhsil haqlarının məbləği nəzərə alınmaqla, təhsil tələbə kreditinin məbləğinin yuxarı həddini təsdiq edir;

3.10.3. birinci tədris ilinin ilk semestri (yarımili) üçün tələbələrin standart təhsil tələbə krediti almaq hüququnu müəyyən edən tələbə qəbulu imtahanında toplanan ümumi balın minimal həddini təsdiq edir;

3.10.4. təhsil tələbə kreditinin maliyyələşdirilməsi ilə bağlı müvəkkil bank tərəfindən Fonda təqdim edilməli sənədlərin siyahısını müəyyən edir;

3.10.5. Fondun strukturunun, işçilərinin say həddinin və əməkhaqlarının müəyyən edilməsi ilə bağlı təkliflərini Nazirliyə təqdim edir;

3.10.6. Fondun kənar auditorunu təyin edir;

3.10.7. daxili və kənar auditor yoxlamalarının nəticələrinə baxır və bu yoxlamaların yekunları ilə əlaqədar tədbirlər görür;

3.10.8. aidiyyəti şəxslə əqd bağlanması haqqında qərar qəbul edir;

3.10.9. Fondun büdcəsi və xərclər smetası barədə təkliflərini Nazirliyə təqdim edir;

3.10.10. Fondun cari fəaliyyəti ilə bağlı bu Nizamnamə ilə İdarə Heyətinin səlahiyyətlərinə aid edilmiş məsələlərin icra vəziyyəti barədə rüblük hesabatı dinləyir;

3.10.11. Fondun kənar auditor rəyi ilə birlikdə illik hesabatını, habelə maliyyə hesabatlarını təsdiq edir;

3.10.12. Fondun vəsaitinin təyinatı üzrə xərclənməsinə nəzarəti həyata keçirir;

3.10.13. fəaliyyət məqsədinə uyğun olaraq dəstəklənməsi prioritet hesab edilən sahələr barədə təkliflərini Nazirliyə təqdim edir;

3.10.14. Şuranın və İdarə Heyətinin üzvlərinin müraciətlərinə baxır və qərar qəbul edir;

3.10.15. Fondun fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Nazirliyə təkliflər verir;

3.10.16. Fondun cari fəaliyyəti ilə bağlı bu Nizamnamə ilə müəyyən edilmiş digər məsələləri həll edir.

3.11. Şuranın iclaslarını üç ayda bir dəfədən az olmayaraq Şuranın sədri çağırır və iclaslara sədrlik edir. Şuranın iclaslarının çağırılması təşəbbüsü ilə Şuranın üzvləri və İdarə Heyətinin üzvləri çıxış edir.

3.12. Şuranın dəvəti ilə onun iclaslarında Fondun digər vəzifəli şəxsləri də iştirak edə bilərlər.

3.13. Şuranın iclasları Şura üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın sədri, o olmadıqda isə Şura sədrinin müəyyən etdiyi Şuranın digər üzvü iclasa sədrlik edir. Şuranın iclasında hər üzvün bir səsi olmaqla, qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, sədrin səsi həlledicidir. Şuranın iclaslarının nəticəsi Şura üzvlərinin imzaladıqları protokolda əks olunmaqla rəsmiləşdirilir.

3.14. Şura bu Nizamnamə ilə onun müstəsna səlahiyyətlərinə aid edilmiş məsələlərin həllini İdarə Heyətinə həvalə edə bilməz.

3.15. Şuranın sədri:

3.15.1. Şuranın işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir;

3.15.2. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclaslar çağırır və iclaslara sədrlik edir;

3.15.3. öz təşəbbüsü ilə, habelə Şuranın hər hansı digər üzvünün və ya İdarə Heyəti sədrinin xahişi əsasında digər şəxsləri Şuranın iclasında iştirak etməyə dəvət edir;

3.15.4. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

3.16. Şuranın üzvləri:

3.16.1. Şuranın səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

3.16.2. Şuranın iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

3.16.3. Şurada qəbul ediləcək qərarlara dair fikir bildirirlər;

3.16.4. Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxılması barədə təkliflər verirlər;

3.16.5. Şuranın qərarları, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

3.17. Şuranın üzvləri Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, Şuranın üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

3.18. Fondun fəaliyyətinə cari rəhbərliyi İdarə Heyəti həyata keçirir.

3.19. İdarə Heyəti 3 üzvdən - Azərbaycan Respublikasının təhsil naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyətinin sədrindən və onun iki müavinindən ibarətdir.

3.20. Şuranın üzvləri İdarə Heyətinə təyin edilə bilməzlər.

3.21. İdarə Heyəti aşağıdakı vəzifələri yerinə yetirir:

3.21.1. Fondun cari fəaliyyətini təşkil edir;

3.21.2. Fondun illik fəaliyyət planını Şura ilə razılaşdırmaqla təsdiq edir;

3.21.3. təsisçinin səlahiyyətlərini həyata keçirmək üçün Şuraya və Nazirliyə təkliflər verir və sənədlər təqdim edir;

3.21.4. təhsil tələbə krediti üzrə kreditin məbləğinin və kredit faizlərinin müəyyən edilməsi üçün Şuraya təkliflər verir;

3.21.5. Fondun büdcəsini və xərclər smetasını, habelə fəaliyyətinə dair illik hesabatı, maliyyə hesabatını hazırlayır və təsdiq üçün Şuraya təqdim edir;

3.21.6. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələri həyata keçirmək üçün Şuraya digər təkliflər verir və sənədlər təqdim edir;

3.21.7. Fondun işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməkhaqqı fondu çərçivəsində təşkil edir;

3.21.8. Fondun maliyyə-təsərrüfat fəaliyyətinin daxili auditinin keçirilməsi ilə bağlı qərar qəbul edir;

3.21.9. Fondun fəaliyyətinin təkmilləşdirilməsi və inkişafı ilə bağlı Şuraya təkliflər verir;

3.21.10. Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Şuranın və İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar verir.

3.22. İdarə Heyətinin iclasları ayda bir dəfədən az olmamaqla keçirilir və İdarə Heyəti üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul olunur. Səslərin sayı bərabər olduqda, İdarə Heyəti sədrinin (və ya onu əvəz edən sədr müavininin) səsi həlledicidir. İdarə Heyətinin iclaslarının nəticəsi bu Nizamnamənin 3.13-cü bəndində nəzərdə tutulmuş qaydada protokollaşdırılır.

3.23. İdarə Heyətinin sədri aşağıdakı vəzifələri yerinə yetirir:

3.23.1. Fondun cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

3.23.2. İdarə Heyətinin digər üzvləri, habelə Fondun digər vəzifəli şəxsləri arasında səlahiyyət bölgüsü aparır və onların fəaliyyətini əlaqələndirir;

3.23.3. İdarə Heyətinin fəaliyyətini təşkil edir və iclaslarına sədrlik edir;

3.23.4. Fondun səmərəli fəaliyyət göstərməsini təmin edir;

3.23.5. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Fondun ştat cədvəlini təsdiq edir;

3.23.6. öz təşəbbüsü ilə, İdarə Heyətinin digər üzvünün və ya Şuranın təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

3.23.7. bu Nizamnamədə Azərbaycan Respublikası təhsil nazirinin səlahiyyətlərinə aid edilmiş hallar istisna olmaqla, Fondun digər işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, qanunda nəzərdə tutulmuş qaydada həvəsləndirmə və intizam tənbehi tədbirləri tətbiq edir;

3.23.8. Fondun işçilərinin sosial müdafiəsinin və əmək şəraitinin yaxşılaşdırılması, əməyinin mühafizəsi ilə bağlı tədbirlər görür;

3.23.9. Fondun fəaliyyətinin məqsədinə aid məsələlərlə bağlı qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

3.23.10. Fondun fəaliyyətinin təşkili ilə bağlı icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

3.23.11. fəaliyyətinin məqsədinə uyğun olaraq dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün tədbirlər görür;

3.23.12. Fondun fəaliyyətinin kənar auditinin keçirilməsi ilə bağlı Şuranın qərarının icrasını təmin edir;

3.23.13. Fondun adından əməliyyatlar aparır, müqavilələr (o cümlədən xarici şirkətlərlə) bağlayır və onların yerinə yetirilməsini təmin edir;

3.23.14. fəaliyyətinin məqsədinə uyğun olaraq komissiyalar, komitələr və işçi qruplar yaradır;

3.23.15. Fondun vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

3.23.16. işçilərin peşəkarlıq səviyyəsinin artırılmasını təmin edir;

3.23.17. Fondda kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

3.23.18. Fondda vətəndaşların qəbulunu və müraciətlərinə baxılmasını təmin edir.

3.24. Fondun İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərinin icrasını, İdarə Heyəti sədrinin təsdiq etdiyi vəzifə bölgüsünə əsasən onun müavinlərindən biri həyata keçirir.

3.25. İdarə Heyətinin üzvləri:

3.25.1. İdarə Heyətinin səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

3.25.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

3.25.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

3.25.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə İdarə Heyətinin iclaslarında baxılması barədə təkliflər verirlər;

3.25.5. İdarə Heyətinin qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

3.26. İdarə Heyətinin üzvləri İdarə Heyətinin iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

### 4. Fondun nizamnamə kapitalı, əmlakı və maliyyə fəaliyyətinin əsasları

4.1. Fondun nizamnamə kapitalının məbləği 80,0 (səksən) milyon manatdır.

4.2. Fondun əmlakı nizamnamə kapitalından, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

4.3. Fond öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Fond balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

4.4. Fond qanunda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Fondun fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

4.5. Fond sərbəst pul vəsaitindən yalnız aşağıdakı istiqamətlər üzrə istifadə edir:

4.5.1. Fondun saxlanılması xərclərinin maliyyələşdirilməsi;

4.5.2. təhsil tələbə kreditlərinin maliyyələşdirilməsi;

4.5.3. dövlət qiymətli kağızlarının əldə olunması;

4.5.4. beynəlxalq reytinq agentlikləri tərəfindən ölkə üzrə verilmiş reytinqdən maksimum iki pillə aşağı olan banklarda depozitlərin yerləşdirilməsi.

4.6. Fond ləğv edildikdə onun borclarının ödənilməsindən sonra qalan əmlakı Fondun nizamnaməsində göstərilən məqsədlərə, bu mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilir.

### 5. Fondun fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

5.1. Fondun fəaliyyətinə nəzarəti Nazirlik, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada Fondun Himayəçilik Şurası və İdarə Heyəti həyata keçirirlər.

5.2. Fondun fəaliyyətinin kənar auditi Şuranın, daxili auditi isə İdarə Heyətinin qərarı ilə həyata keçirilir.

5.3. Eyni kənar auditorla ardıcıl 3 (üç) ildən artıq müddətə müqavilə bağlamaq olmaz.

### 6. Uçot və hesabat

6.1. Fond "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mühasibat uçotunu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

6.2. Fond "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik uçot aparır, statistik hesabatları tərtib və təqdim edir.

6.3. Fond öz əmlakından istifadə haqqında hesabatları hər il dərc edir.

6.4. Fondun fəaliyyətinə dair illik hesabat Nazirliyə təqdim edilir.

### 7. Fondun yenidən təşkili və ya ləğv edilməsi

Fondun ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

# Təhsil naziri Təhsil Tələbə Krediti Fondu ilə bağlı sualları cavablandırıb

İyunun 18-də təhsil naziri Emin Əmrullayev Təhsil Tələbə Krediti Fondunun yaradılması ilə bağlı brifinq keçirib.

AZƏRTAC xəbər verir ki, brifinqdə təhsil naziri fondun yaradılmasının əsas məqsədinin ali təhsilin hamı üçün əlçatanlığının təmin edilməsi, təhsildə bərabər imkanların yaradılması olduğunu qeyd edib. Təhsil Tələbə Krediti Fondunun ali təhsil sahəsində mühüm dəyişikliklərə gətirib çıxaracağını deyən nazir vurğulayıb ki, bununla da sosial həssas qrupa aid olan şəxslərin ali təhsil almaq imkanları genişlənəcək. Nazir bildirib ki, fərmandan irəli gələn məsələlər müəyyən qaydalarla tənzimlənəcək. Kreditlər sosial həssas qrupdan olan tələbələr üçün nəzərdə tutulub. Bu qrupa aid olmayanlar üçün isə qaydalar açıqlanacaq. Müvəffəqiyyət göstəricisi olan və kredit alan tələbə ilə bağlı müvafiq güzəştlər nəzərə alınacaq. Kreditin məbləği təhsil haqqı məbləğindən artıq olmayacaq. Təhsil naziri əlavə edib ki, növbəti tədris ilindən təhsil kreditlərinin verilməsi mümkün olacaq. Təhsil krediti hər tədris ili üzrə veriləcək. fondun Nizamnamə kapitalı 80 milyon manat nəzərdə tutulub, amma gələcəkdə fondun maliyyəsi artırıla bilər. Təhsil Tələbə Kredit Fondundan həm dövlət, həm də özəl təhsil müəssisəsində təhsil alan tələbələr istifadə edə bilərlər.



Xatırladaq ki, əhalinin aztəminatlı təbəqələrindən olan şəxslərin təhsilə əlçatanlığını təmin etmək, təhsil almaqda bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirmək məqsədilə Prezident İlham Əliyev "Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Fərman imzalayıb.

# Qaliblər mükafatlandırılıb

İyunun 18-də "Qarabağ uşaqların gözü ilə respublika onlayn videoçarx müsabiqəsi" qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbir Dövlət himninin səsləndirilməsi ilə başlanıb.

Mərasimdə çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 2020-ci il sentyabrın 27-dən başlanan əks-hücum əməliyyatları nəticəsində Qarabağı Ermənistanın işğalından azad etməklə milli çağdaş tariximizə şanlı səhifə yazdığını tədbir iştirakçılarının diqqətinə çatdırıb. Nazir müavini Qarabağın dünyanın ən qədim insan məskənlərindən biri olduğunu qeyd edərək burada İslam dövrünə aid 2000-dən artıq müxtəlif tarixi və mədəni abidələrin qeydə alındığını vurğulayıb. Qeyd edilib ki, orta əsrlərdən məşhur olan Qarabağ xalçaları öz şöhrətini günümüzədək saxlayıb. Bütün müsəlman Şərqində olduğu kimi Azərbaycanda, o cümlədən Qarabağda son orta əsrlərdə də mədəniyyət, elm və ədəbiyyat yüksək inkişaf dövrü keçirib, sonrakı dövrlərdə də Qarabağ mədəni mərkəz rolunu itirməyib. Ermənistanın törətdiyi pozuculuq fəaliyyəti, münaqişə və müharibə, davam edən vandalizmi Azərbaycanın əsrlərlə qoruyub saxladığı tarixi abidələrin çoxunu məhv edib. 1988-ci ildən başlayan erməni təcavüzü nəticəsində 100 mindən artıq əşyanın toplandığı 22 muzey işğal olunmuş ərazilərdə qalmaqla talan edilib, səhiyyə, təhsil müəssisələri və digər infrastruktur binaları dağıdılıb. Bəşəriyyətin ulu əcdadlarının beşiklərindən biri olan Azıx mağarası ermənilərin hərbi sursat anbarına çevrilib. Hazırda Qarabağ bölgəsində infrastrukturun bərpasına yönələn kompleks işlər aparılır, müxtəlif sahələrin dirçəldilməsi üçün təkliflər hazırlanır, tədbirlər planları təsdiq edilir.

Firudin Qurbanov istedadlı uşaq və gənclərin aşkar edilməsi, gənc nəsildə vətənə, torpağa məhəbbət hisslərinin artırılması və hərbi-vətənpərvərlik ruhunun təbliği, ölkəmizin işğal altında olan ərazilərinin azad edilməsində ordumuzun və dövlətimizin əldə etdiyi nailiyyətlərin, qazanılan zəfərin bütün türk dünyasının qələbəsi olduğunun gənc nəslə çatdırılması, uşaq və gənclərin yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi və asudə vaxtlarının səmərəli təşkili baxımından belə müsabiqələrin xüsusi əhəmiyyətini vurğulayıb. Nazir müavini çıxışının sonunda qalibləri təbrik edib, onlara uğurlar arzulayıb.

Daha sonra çıxış edən Azərbaycan Dövlət Film Fondunun direktoru Cəmil Quliyev və Vətən müharibəsi iştirakçısı Mehman İbrahimov 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun göstərdiyi şücaətdən bəhs edib, qalibləri təbrik ediblər.

Sonra müsabiqədə I, II, III və həvəsləndirici yerlərə layiq görülmüş məktəblilər təltif olunub, diplom və hədiyyələr təqdim edilib.

Mərasimin sonunda 2 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin "Təbəssüm" rəqs qrupu çıxış edib.

# DİN sosial media vasitələrindən istifadə olunmaqla törədilən dələduzluq halları ilə bağlı əhaliyə müraciət edib

Daxili İşlər Nazirliyi (DİN) sosial media və digər vasitələrdən istifadə olunmaqla törədilən dələduzluq hallarının artması ilə bağlı əhaliyə müraciət edib.

DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müraciətdə son dövrlər dələduzluqla məşğul olan bəzi şəxslərin sosial media və elan saytları vasitəsilə ticarət edən vətəndaşların satışa çıxardığı məhsulları, guya, almaq məqsədilə özünün ölkədə olmadığını, həmçinin uzaq məsafədə olduğunu əsas gətirərək ödənişi onlayn yolla edəcəklərini bildirib bank kartı məlumatlarının əldə etmələri hallarına rast gəlindiyi vurğulanıb.

"Həmin dələduzlar vətəndaşlara xüsusilə saxta xarici nömrələrdən zənglər edərək və "WhatsApp" vasitəsilə yazaraq, guya, alacağı məhsulun ödənişini etmək məqsədilə onların şəxsi bank kartlarının məlumatlarını əldə edirlər. Daha sonra onlar vətəndaşların bank kartlarındakı məlumatları, yəni kart sahibinin adı, soyadı, kartın son istifadə tarixi, CVV nömrəsi və təsdiq kodunu ("3D secure") əldə etməyə çalışırlar. Həmin məlumatları əldə edəndən sonra dələduzlar tərəfindən kart sahiblərinin xəbərləri belə olmadan onların hesablarından onlayn ödənişlər həyata keçirilir və vəsaitlər mənimsənilir.

Bir daha vətəndaşları onlayn alış-veriş zamanı diqqətli olmağa çağırır və kibercinayətkarlıqla üzləşdikləri təqdirdə DİN-in 102 - Zəng Mərkəzinə məlumat vermələrini xahiş edirik", - deyə Daxili İşlər Nazirliyinin müraciətində qeyd olunub.

# Suriyadan repatriasiya olunanlar psixoloji reabilitasiya proqramına cəlb ediliblər

Suriyanın Cerabus şəhərindəki Amerna düşərgəsində saxlanılan, 6-sı qadın, 14-ü uşaq olan Azərbaycan vətəndaşları vətənə repatriasiya olunduqdan sonra onların reabilitasiya və reinteqrasiya işləri həyata keçirilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, onların ölkəmizə gətirilməsi istiqamətində Azərbaycan hökuməti tərəfindən görülmüş mərhələli tədbirlərin davamı olaraq həmin şəxslər reabilitasiya proqramına cəlb ediliblər.

Onların reabilitasiyası fərdi plan əsasında Sosial Xidmətlər Agentliyinin sosial işçiləri və psixoloqları tərəfindən aparılır. Reabilitasiya və reinteqrasiya tədbirləri aidiyyəti dövlət qurumları ilə birgə əməkdaşlıq şəraitində aparılır.

Azərbaycan hökuməti milli qanunvericiliyə və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq öz vətəndaşlarının hüquq və azadlıqlarının qorunması istiqamətində zəruri tədbirlərin görülməsini davam etdirir.

# Yeni çəkilən yollarla üzü Şuşaya...

## Yağıdan qurtulan Qarabağın torpağı çiçək açır, çeşmələri qaynayır,obaları nura qərq olur

*Əvvəli 1-ci səh.*

Elə həmin gün Prezident "Zəfər" yolunun Xocavənd rayonundan keçən hissəsində inşa edilən körpüdə görülən işlərlə də tanış oldu. İşğaldan azad edilən ərazilərimizdə görülən bütün bərpa və yenidənqurma işləri kimi, burada da tikinti yüksək sürətlə aparılır və yol istismara verilənədək körpü də hazır olacaq. Quruçay üzərindən salınan bu üçaşırımlı körpünün uzunluğu 86 metr təşkil edəcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonundakı Aşağı Köndələnçay su anbarında da olublar. İşğaldan azad edilmiş ərazilərimizdəki digər su mənbələri kimi Köndələnçay su anbarı da artıq öz əlimizdədir. Məlum olduğu kimi, 1993-cü ildə Füzuli rayonu erməni qəsbkarları tərəfindən işğal ediləndən sonra bu su anbarından istifadə etməyimiz mümkün olmayıb. İşğal zamanı torpaqlarımızda ekoloji terror törədən erməni vandalları əkin-biçinin suvarmaya ehtiyacı olduğu zaman suyun qarşısını kəsmiş, daşqınlarda və təsərrüfatlara su lazım olmayan vaxtlarda isə anbarlardan suyu buraxaraq ciddi problemlər yaratmışlar. Bir sözlə, mənfur düşmən bizi sudan bəhrələnməkdən məhrum etmişdi. Sərsəng və Suqovuşan su anbarları işğalçının əlində olduğundan 100 min hektar torpaq susuz qalmışdı. Nəticədə bir neçə rayonda su təminatını yaxşılaşdırmaq üçün yüzlərlə subartezian quyusunun qazılması zərurəti yaranmışdı. Ağdam, Tərtər, Bərdə, Yevlax, Goranboy və digər rayonlar Tərtərçayın suyundan istifadə edə bilmirdi. Vətən müharibəsindəki qələbəmizlə həmin sərvətlərimiz də özümüzə qayıtdı.

Köndələnçay su anbarında olarkən dövlət başçısı bu barədə demişdir: "Azad edilmiş bütün torpaqların su mənbələrinin xəritəsi hazırlanır. Bizim bütün su ehtiyatlarımız, çaylarımız, göllərimiz, su anbarlarımız - bu sərvətimiz indi bizim əlimizdədir. Bu sudan səmərəli şəkildə istifadə etmək üçün yeni kanalların çəkilməsi və köhnə kanalların bərpası məqsədilə artıq vəsait də ayrılıb, müvafiq göstərişlər verildi və geniş proqram icra edilməyə başlanmışdır. Köndələnçay su anbarına mən bir müddət bundan əvvəl bir heyət göndərmişdim. Bu anbarın vəziyyəti araşdırıldı və həyat bu bölgəyə qayıdandan sonra əlbəttə ki, biz bu sudan istifadə edəcəyik... Mənə bu yaxınlarda verilən məlumata görə, Vətən müharibəsindən sonra 30 min hektardan çox sahəyə Suqovuşan su anbarından su verilməyə başlanmışdır. Eyni zamanda Ağdam rayonunda Xaçınçay su anbarı da bizim nəzarətimizdədir, işğaldan azad edilib və o su anbarı bu su anbarından həcm baxımından daha böyükdür. Bir daha demək istəyirəm ki, bizim bütün su ehtiyatlarımız araşdırılır, təhlil edilir və gələcəkdə bizə böyük üstünlük verəcəkdir".

Xatırladaq ki, Köndələnçay su anbarı Ulu Öndər Heydər Əliyevin göstərişi və təşəbbüsü ilə 1980-ci illərin əvvəllərində inşa edilmişdi. Onun istifadəyə verilməsinin əsas məqsədi Füzuli rayonunda kənd təsərrüfatının inkişaf etdirilməsi idi. Ümumi tutumu 9,5 milyon kubmetr olan bu su mənbəyi 6200 hektar sahəni suvarmağa imkan verirdi. Vətən müharibəsindən sonra Köndələnçay su anbarı nəzarətimizdədir və Prezident artıq onun gələcək istismarı ilə bağlı müvafiq göstərişlər verib.

Bəli, yeni salınan yollarla üzümüz Qarabağadır. Düşmən əlindən qurtulan su çeşmələrimiz də qaynayır. İşğaldan azad edilmiş bölgələrin işığı da getdikcə daha gur yanır. Burada qısa müddətdə artıq neçə elektrik yarımstansiyası istifadəyə verilib. İyunun 14-də isə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni tikilən "Füzuli" yarımstansiyasının açılışında iştirak etdilər. Prezident yarımstansiyanı işə saldı.

110/35/10 kilovoltluq bu yarımstansiya dövlət başçısının işğaldan azad edilən ərazilərin ən az vaxtda elektrik enerjisi ilə təchiz edilməsinə dair tapşırığına uyğun olaraq tikilib. İnşa edilən yeni aeroportun və Şuşa yolunun yaxınlığında yerləşən yarımstansiya hava limanı da daxil olmaqla, Füzuli şəhəri və ətraf kəndlərdə inşa ediləcək bütün infrastrukturu elektrik enerjisi ilə təchiz edəcək.

Bu enerji obyekti, o cümlədən yeni İdarəetmə Mərkəzi ən müasir tələblərə cavab verən avadanlıqla təchiz olunub və komplektləşdirilib. İdarəetmə Mərkəzində texniki imkanlarla yanaşı, əməkdaşlar üçün hərtərəfli iş və istirahət şəraiti yaradılıb. Yarımstansiyanın işinə real vaxt rejimində nəzarət olunması və göstəricilərin "Azərenerji"yə ötürülməsi məqsədilə yerli mikro-SCADA dispetçer idarəetmə sistemi qurulub.

İşğaldan azad edilən ərazilərin böyük hissəsinin Azərbaycanın ümumi enerji sisteminə qoşulması üçün "Şükürbəyli" yarımstansiyası da genişləndirilərək yenidən qurulub. Burada yeni avadanlıqla komplektləşdirilmiş mühafizə və avtomatika sistemləri ilə təchiz edilən İdarəetmə Mərkəzi yaradılıb və lokal mikro-SCADA sistemi qurularaq yarımstansiyanın idarə olunması tam rəqəmsallaşdırılıb. Yenidən qurulan 110/35/10 kilovoltluq bu yarımstansiyanın da məsafədən idarə olunan SCADA dispetçer sistemi vasitəsilə açılışını Prezident İlham Əliyev etdi.

İşğaldan azad edilən digər rayonlarda tikiləcək yarımstansiyaların Azərbaycanın ümumi enerji sisteminə qoşulması üçün "Şükürbəyli" yarımstansiyasına İmişli yarımstansiyasından 51 kilometr məsafədə 110 kilovoltluq xətt çəkilib. "Şükürbəyli" yarımstansiyasından isə Şuşaya 75 kilometrlik ikidövrəli 110 kilovoltluq xətt çəkilib və bu xətt Füzuli şəhərində yeni tikilən 110 kilovoltluq yarımstansiya ilə əlaqələndirilib. Paralel olaraq hazırda "Şükürbəyli" yarımstansiyasından Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında yeni tikilən yarımstansiyalara yüksək gərginlikli elektrik veriliş xətti çəkilir. Bu bölgələrin yurd həsrətliləri yeni tikilən ev-eşiklərinə işıqlı yollarla dönəcəklər.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Beynəlxalq hüquqa istinad edən Ermənistan, ilk növbədə, ona hörmət etməyi öyrənməlidir

"Azərbaycan və Türkiyə prezidentləri tərəfindən imzalanmış Şuşa Bəyannaməsini şərh edərək bu sənədin erməni xalqına qarşı yönəldiyini iddia edən Ermənistan XİN-i hələ də Ermənistanın onilliklər ərzində davam edən təcavüzkar siyasətinin, qonşu dövlətin ərazilərinə olan iddialarının, xalqın rifahına deyil, bir qrup insanın maraqlarına xidmət edən siyasət yürütməsinin və nəhayət, sərgilədiyi revanşist mövqeyin məhz erməni xalqına qarşı olduğunu dərk etmir. Ermənistanın bu barışmaz mövqeyi bölgədə sülh və təhlükəsizliyin təmin olunmasına başlıca maneədir".

Bu fikirlər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Ermənistan XİN-in Şuşa Bəyannaməsi ilə bağlı açıqlamasına dair şərhində yer alıb.

Bildirilib ki, beynəlxalq hüququn fundamental normalarını, o cümlədən dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığını onilliklər ərzində kobud şəkildə pozan, bir milyonadək azərbaycanlının insan hüquqlarını heçə sayan Ermənistan XİN-in indi beynəlxalq hüquq normalarından danışması riyakarlığın son həddidir. Beynəlxalq hüquqa istinad edən Ermənistan, ilk növbədə, ona hörmət etməyi öyrənməlidir.

Azərbaycan və Türkiyə liderləri tərəfindən təklif edilən regional əməkdaşlıq platformasını rədd edən Ermənistan XİN-in bunu "erməni xalqına qarşı təhlükə" və "bölgə üçün təhdid" bəhanələri altında təqdim etməsi isə Ermənistanın sülh, əməkdaşlıq, inkişaf meyillərindən nə qədər uzaq olduğunu açıq şəkildə nümayiş etdirir.

Azərbaycanın ərazilərinin işğaldan azad edilməsi ilə bölgədə yeni vəziyyət formalaşıb və regional əməkdaşlığın həyata keçirilməsi üçün unikal imkanlar yaranıb. Bu vəziyyəti dərk edərək əməkdaşlıqdan faydalanmaq və ya bunun əksi artıq Ermənistanın verəcəyi qərardır. Azərbaycan və Türkiyə isə Şuşa Bəyannaməsində də ehtiva olunduğu kimi, "beynəlxalq hüququn prinsip və normalarına, o cümlədən də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərini davam etdirəcəklər".


## "Azərsu" ASC

## daxili vəsaiti hesabına Mərkəzi laboratoriya və onun struktur vahidinə daxil olan laboratoriyalar üçün kimyəvi reagentlər, mal-materiallar, avadanlıq, cihaz və ehtiyat hissələrinin satın alınması üçün

## *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: çatdırılma müddəti, ən aşağı qiymət təklifi.

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 300 manatdır.**
**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. I. F. T. BIK: AIIBAZ2X**
**H/h: AZ65AIIB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqını təsdiq edən sənəd;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 45 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi halları mövcud olmamalıdır (müvafiq icra hakimiyyəti orqanının arayışı);*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *malgöndərənlərin (podratçıların) ixtisasına dair tələblər ("Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsində tələb olunan sənədlər);*
- *malgöndərənlərin (podratçıların) mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı).*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **12 iyul 2021-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə **22 iyul 2021-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **23 iyul 2021-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

## "Azərsu" ASC

## daxili vəsaiti hesabına 50 kq-lıq balonlarda maye xlorun satın alınması üçün

## *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: çatdırılma müddəti, ən aşağı qiymət təklifi.

Malgöndərənlər (podratçılar) qeyd olunan məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 300 manatdır.**
**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. I. F. T. BIK: AIIBAZ2X**
**H/h: AZ65AIIB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqını təsdiq edən sənəd;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 45 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi halları mövcud olmamalıdır (müvafiq icra hakimiyyəti orqanının arayışı);*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *malgöndərənlərin (podratçıların) ixtisasına dair tələblər ("Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 6.2-ci maddəsində tələb olunan sənədlər);*
- *malgöndərənlərin (podratçıların) mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı).*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **12 iyul 2021-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə **22 iyul 2021-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **23 iyul 2021-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

# Qurd ürəkli İBAD

**◆ Milli qəhrəmanlar**

*Əvvəli 1-ci səh.*

Həmin qış gecəsinin səhəri ala-qaranlıqda duraraq mal-qaranı alaflayan Kifayət talvarın altına yığdıqları odunlardan qucağına yığaraq evə gətirdi. Artıq sönmək üzrə olan sobadakı közərən kösövləri maşa ilə irəli çəkib odunları onların üzərinə qoyaraq üfürdü ki alışsınlar...

Elə bu zaman həyətdə at kişnədi... Tanış səsi eşidən uşaqlar, Eyvaz, İlyas, Əbülfət sevinərək ovdan qayıdan atalarının qabağına qaçdılar...

Hay-küylə içəri girən Mövsüm kişi həmişəki kimi əlidolu gəlmişdi, amma budəfəki ovu bir az fərqli idi...

O, ov bıçağı ilə əlində tutduğu ət parçasını bir neçə yerə bölərək çırtaçırtla yanan sobanın üstünə qoyub bişirdi və uşaqlara verdi... Böyük bir tikəni isə Kifayətə uzadıb dedi ki, "bunu ye, ceyran ürəyidir"...

Mövsüm kişi verdiyi tikəni həyat yoldaşının tamamilə yediyinə əmin olduqdan sonra isə gülə-gülə, "Kifayət, biləsən ki, o ceyran yox, qurd ürəyi idi...", söylədi...

Həmin zaman ailə növbəti övladının dünyaya gəlişini gözləyirdi, İbad anasının bətnində idi...



## "Tülkü" ovu...

Həmin ovdan illər keçmişdi və 1993-cü ilin 12 iyunu idi...

İndi artıq ovçu Mövsümün qaraşın, itibaxışlı, hündürboylu, cüssəli "od-alov" gənc oğlu İbad özü peşəkar ovçu idi...

O da atası kimi, elinə-obasına qarşı haramzadalıq edən bir ovun izini sürmüşdü...

O da həmin ovla qarşı-qarşıya gəlmişdi, o da həmin ovdan qalib tərəf kimi ayrılmışdı...

Amma bu ov, illər əvvəlki ovdan iki məqama görə tamamilə fərqlənirdi...

Budəfəki ovun hədəfi qurd yox, tülkü idi...

Qorxaq tülkülərin isə ürəyi heç kimə lazım olmur...

Elə buna görə də 1993-cü ilin 12 iyununda həmin tülkü başını Qarabağda itirmişdi...

## "İbadı ölümə də göndərsəm, sağ qayıdıb gələcək..."

*Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ehtiyatda olan baş çavuşu, Azərbaycanın Milli Qəhrəmanı, "Azərbaycan bayrağı" ordenli İbad Mövsüm oğlu Hüseynovdur həmsöhbətimiz...*

*Cəsur qəhrəmanımızı hamımız tanıyırıq, igidlikləri haqqında çox eşitmişik... Həyatına həsr edilən "Əsgər", "Kəşfiyyatçı" sənədli filmləri və "Qorxulu yuxuların qəhrəmanı", "Xüsusi təyinatlı İbad", "Xüsusi Təyinatlı İbad - 2" filmləri lentə alınıb. Ağcabədi və Abşeron ərazisindəki, eyni zamanda Türkiyənin Ankara şəhərində və Kırşəhər vilayətindəki küçələrə, Qaziantep şəhərində parka adı verilib.*

*Amma 44 günlük müharibədən sonra, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuzun Qarabağı azad etdiyi və zəfər qüruru yaşadığımız bu günlərdə əfsanəvi qəhrəmanımız İbad Hüseynovla danışmaq, yaşadığı qələbə sevincini paylaşmaq da bir başqa tarixi andır...*

*Hər nə qədər qəhrəmanımız desə ki, həyatından, keçdiyi döyüş yolundan özü danışmağı sevmir, - lakin uşaq İbadı, gənc İbadı da hamıdan yaxşı elə İbad Hüseynovun özü tanıyır...*



- Qarabağda, Xocavəndin Muğanlı kəndində zəhmətkeş bir ailədə doğulub böyümüşəm. 5 qardaş, 3 bacı olmuşuq. Atam Mövsüm ovçu idi, həm də Xocavənddəki dəyirmanı işlədirdi. "Qağam" (atamı belə çağırırdıq) çox mərhəmətli, elinə, obasına daim əl tutan biri idi... Uşaq idim, yadımdadır, dəyirmandan gələndə özü ilə gətirdiyi buğdanı, unu kəndin imkansız ailələrinə paylayardı, özü isə evə əliboş gələrdi...

Anam Kifayəti qəhrəman qadın adlandırardım. Hökmlü, qoçaq, qorxmaz qadın idi. Uşaq vaxtı qardaşlarıma da, mənə də hər zaman tapşırırdı ki, əgər kiməsə döyülüb gəlsəniz, sizi evə qoymayacam...

Onu da deyim ki, böyük uşaqlar idik, amma anam hələ də bizi laylay, zümzümə ilə yatızdırırdı...

İndi düşünürəm ki, elə anamın o laylaları, zümzümələri qəlbimizə hopararaq zərrə-zərrə ruhumuza vətənpərvərlik hissini aşılayırmış...

Bu yaşımda dönüb ötən illərə baxanda görürəm ki, çox qorxmaz bir uşaqlıq, gənclik keçirmişəm. 12-13 yaşımda gecə-gündüz demədən heyvanları qatırdım qabağıma, aparıb dağda otarırdım. Anam həmişə qağama deyirdi ki, "ay Mövsüm, qoyma bu uşağı gecə vaxtı getsin, dağda qurd-quş basıb yeyəcək..." Qağam isə deyirdi ki, "heç nə olmaz, o özü qurddur elə..."

Qağam hər zaman mənə güvənir, ürək rahatlığı ilə ən çətin işlərin arxasınca göndərirdi. Kiçik yaşlarımdan motosikletini verirdi ki, get filan yerə gəl. O həm də artezianların elektriklərinə nəzarət edirdi. Baxmayaraq ki, orada elektrik gərginliyi çox yüksək olurdu, mənə deyirdi ki, arteizan xarabdır, get onu düzəlt gəl. Mən də gedib düzəldib qayıdırdım. Tüfəngini də mənə verirdi, dağlara gedib dovşan, quş vururdum...

Bir dəfə qonşumuz Cəfər kişi bizə gəlmişdi. O mənim ipə-sapa yatmaz, qorxusuz uşaq olmağımla bağlı qağama nəsə dedi. O zaman qağam Cəfər əmiyə danışdı ki, mən anamın qoynunda olarkən, anama ceyran ürəyi adı ilə ovladığı qurdun ürəyini yedirib. Deyirdi ki, İbad qurd ürəyi yediyi üçün belə qorxmazdır.

Yadımdan heç zaman çıxmaz, bir də qağam hər zaman deyirdi ki, "bilirəm ki, İbadı ölümə də göndərsəm o, sağ qayıdacaq..."

## Qanlı 20 Yanvar hadisələrinə etiraz

*Beləcə, uşaqlıq, yeniyetməlik dövrü keçir, illər İbadı sürətlə ömrünün ən dəli-dolu çağlarına, gəncliyə yaxınlaşdırırdı...*

*Artıq İbadın doğma Xocavəndini, Muğanlısını tərk etmək, əsgərliyə yollanmaq zamanı çatmışdı və elə bu məqamdan sonrakı həyatında onu böyük sınaqların gözlədiyini bilmədən həvəslə hərbi xidmətə yola düşmüşdü.*

*1988-ci il, Qarabağda azərbaycanlıların ən çətin sınaqlarla üz-üzə qaldığı o məşum zaman idi...*

- Sovet ordusunda qulluq etmək üçün Rusiyanın Amur şəhərində yerləşən hərbi hissəyə yola düşdüm. Ciddi rejimli piyada döyüş hərbi hissəsinə düşmüşdüm. Elə bil, məni hansısa fövqəlqüvvə yönəltmişdi ki, döyüş üçün xüsusi hazırlaşım. Əsgər yoldaşlarım təlimdən gəlirdi yorulurdu, mən yorulmazdım, yuxu nədir bilməzdim.

Hərbi hissədə müvəffəqiyyətləri göstərən lövhə var idi, orada bütün sahələr üzrə birinci yerdə idim. Qaçmaqda, turnikdə, atıcılıqda, qumbara atmaqda...

Hər şeydə birinci olmaq istəyirdim, bu mənim qanımda idi, uşaqlıqda da belə idim. Qırğız millətindən olan bir briqada komandirimiz var idi, polkovnik Esen Topoyev (sonradan o Qırğızıstanın müdafiə naziri oldu), həmişə məni sıranın qarşısına çıxarıb nümunə çəkərdi. Deyirdi, baxın, lap gecə saat 4-də də olsa görürəm ki, Hüseynov təlimdədir, məşq edir, qaçır, turnikdədir...



Yeniyetməliyimdən Bruse Leenin heyranı idim. Bruse Leenin ruhunda təlim keçirdim, çalışırdım onun kimi olum. Hərbi hissəmizdəki "Lenin otağı"nı məşq otağına çevirib divarlarına da Bruse Leenin və öz şəkillərimi vurmuşdum. Hətta Leninin heykəlini də yavaş-yavaş söküb atmışdım. Düzdür, buna görə hərbi hissənin rəhbərliyi mənə 7 "sutka" "qubbax" vermişdi...

1990-cı ilin 22 yanvarı idi. Dəhlizdəki televizora baxanda gözlərimə inana bilmədim, gördüm ki, Bakı qan içindədir, orada qırğın törədilib. Həmin vaxt törədilən dəhşətə etiraz olaraq qonşu hərbi hissələrdə də nə qədər azərbaycanlı əsgər var idisə, yığışaraq oturaq aksiyaya başladıq. Vətənə göndərilməyimizi tələb edirdik. Nə qədər etsələr də, aksiyamızı dayandırmadıq. Axırda bizi bölüb başqa şəhərlərdəki hərbi hissələrə göndərdilər. Yenə də etirazlarımı davam etdirdim, nə qədər məni döydülər, "qubbağa" saldılar... Böyük davalar düşdü...

O zaman Topoyev məni otağına çağırdı. O, vaxtilə Gəncədə hərbi xidmət keçmişdi və Azərbaycan dilində bir az bilirdi. Qarşısındakı düyməni göstərdi və dedi ki, mən bu düyməni basaram və səni 3 il həbs etdirərəm. Amma azərbaycanlısan deyə bunu etmirəm. Əlavə etdi ki, bizim iki yolumuz var. Ya səni öldürməliyik, ya da buraxmalıyıq. Daha sonra hökm və hirslə dedi ki, "get xidmət et..." Əsgərliyimin bitməsinə isə 4 ay qalmışdı.



Elə həmin gecə iki zabit gəldi və məni "Zil" maşını ilə tanımadığım bir qəsəbəyə gətirdilər. O zaman düşündüm ki, məni öldürməyə aparırlar, amma onlar hərbi biletimi verdilər və dedilər ki, "get, bir də buralara qayıtma..."

## Beş qardaş, beş döyüşçü...

Vətəndə isə İbadı daha ağır, çətin sınaqlar gözləyirdi...

Qarabağda qızğın döyüşlər gedirdi və Mövsüm kişinin oğlanlarının hamısı bu döyüşlərin ön cəbhəsində idi. Muğanlıda ailənin böyük oğlu Eyvaz Hüseynovun rəhbərliyi altında könüllü özünümüdafiə dəstələri yaradılmışdı. Ailənin digər oğulları İlyasla Əbülfət də o zaman yaşadıqları Ukraynadan Azərbaycana dönərək doğma yurd yerlərinin, bütövlükdə Vətən torpaqlarının müdafiəsinə qalxmışdılar.

İlyas döyüşçülərimizi şəxsi vəsaiti hesabına aldığı silah-sursatla təmin edirdi. 1992-ci ilin yanvar ayında Muğanlı kəndinin müdafiəsi üçün ilk rəsmi bölük yaradılmışdı və komandiri İlyas Hüseynov təyin edilmişdi. Kənddə yaradılan özünümüdafiə dəstəsinin yüksək döyüş ruhunda olması və fiziki cəhətdən yaxşı hazırlanması üçün idmançı Əbülfət Hüseynov gecə-gündüz səylə çalışırdı. Ailənin sonbeşik oğlu Füzuli isə hərbi xidmətə elə qardaşlarının yaratdığı özünümüdafiə dəstəsinin tərkibində başlamışdı...



Əsgərlikdən yenicə qayıdan İbad da hərbi formasını əynindən çıxarmağa macal tapmadan müharibənin od-alovu içinə düşmüşdü.

Döyüş yolu könüllü batalyondan başlayan İbad Hüseynov tezliklə kəşfiyyat bölüyünün komandiri kimi yaxın-uzaq ətrafa öz qəhrəmanlığı ilə səs saldı. Onun gətirdiyi əməliyyat məlumatları düşmən arxasında gerçəkləşdirdiyi əmrlər, göstərdiyi rəşadət artıq düşməni əməlli-başlı narahat etməyə başlamışdı. Hərbi sursat və texnika olmadığından İbad Hüseynov ermənilərin çox sayda silah və təchizatını ələ keçirərək dəstənin silahlanmasında böyük rol oynamışdı...

- 1992-ci ilin əvvəlləri idi. Muğanlıdan Xocavəndə hücuma keçmək istəyirdik, amma ora girə bilmirdik. Xocavənddəki, vaxtilə atamın işlətdiyi dəyirmanın hər iki çardağından bizə atəş açırdılar. Əmim oğlu Müşviqi də götürüb gizlincə dəyirmanın arxasına gəldim və əlimdəki qumbaranı içəri atdım. Dəyirman dağıldı, düşmənin atəş nöqtəsi susdu... O zaman kiçik bir dəstə ilə Xocavəndi yarıya kimi almışdıq...

## Hədəf "ən böyük erməni vətənpərvər"i idi

İbadın kəşfiyyat zamanı və döyüşlərdə göstərdiyi qəhrəmanlıqlar bir yazıya sığmayacaq qədər saysız-hesabsızdır. Amma 1993-cü ilin iyun ayında İbad və kəşfiyyatçılarının öhdəsindən gəldikləri ən taleyüklü tapşırıq qəhrəmanlıq salnaməmizdə özünəməxsus yer tutub...

Hələ may ayından Ağdam DTX-nın rəisi İbada məlumat vermişdi ki, Ağdamdan Xocavənd bölgəsinə xaricdən gəlmə Avo adlı erməni keçib. Onu izləyin. İbadgil isə bu müddət ərzində sarı UAZ-da gəzən Avonun haradan gəlib, hara getdiyini diqqətlə izləyirdilər...

Amma o zaman İbadgil bilmirdi ki, düşmən birləşmələrinə rəhbərlik edən Xocavənd rayonundakı hərbi qarnizonun komandiri Avonun əsl adı Monte Melkonyandır.

ABŞ-da doğulan Monte professional terrorçu idi. O, terror təşkilatı ASALA-ya daxil olub, sonradan onun hərbi qanadını yaradıb. Dünyanın bir çox bölgələrində, o cümlədən Livanda, Yunanıstanda, İtaliyada törədilən terror aktlarında yaxından iştirak edib və terror hədəfinə çevirdiyi şəxslər sırasında türk mənşəlilər xüsusi yer alıb. 1985-ci ildə Parisdə həbs cəzasına məhkum olunub, lakin erməni lobbisinin və digər himayədarlarının təsiri ilə vaxtından əvvəl həbsdən azad olunaraq Cənubi Yəmənə göndərilib.

Daha sonra Qarabağ döyüşlərinə qatılan Melkonyanın əli günahsız azərbaycanlıların qanına bulaşıb. Qaradağlı faciəsinin əsas müəlliflərindən biri məhz Melkonyandır və bu zaman azərbaycanlılara amansız işgəncələrin verilməsində şəxsən iştirak edib. O, Xocalı soyqırımında da günahsız insanları ən ağlasığmaz vəhşiliklə qətlə yetirən ermənilər arasında olub. Ermənistanda mifikləşdirilən bu amansız qatili "ən böyük erməni vətənpərvər"i hesab edirdilər...



kəşfiyyat zamanı parça üzərində çəkdiyi xəritə



Və ləqəbi də "dağ tülküsü" idi...

Hətta plan var idi ki, Azərbaycanı Muğan bölgəsinə qədər işğal etdikdən sonra Melkonyan Prezident olsun...

## "Dağ tülküsü"nün izində...

- İyun ayının 10-u idi. Ermənilər Ağcabədinin Qiyaməddinli kəndinə girmişdilər. Onların qarşısını almağa isə heç bir qüvvəmiz yox idi. Hərbi hissədə yığışan komandirlər mənə dedi ki, indi nəsə elə bir hadisə törətmək lazımdır ki, onların qarşısına çıxmaq üçün güc toplayaq...

Həmin gün kəşfiyyat qərargahına gələrək döyüşçülərimi sıraya düzdüm və ilk dəfə orada könüllü sözü işlətdim. Dedim ki, bu sonuncu gedişdir, ölümə kim getmək istəyir, qabağa çıxsın. 12 nəfər kəşfiyyatçım irəli çıxdı (onlardan ikisi şəhid olub, digərlərinin hamısı yaşayır...)

Həmin gecə səhərə qədər yatmadım, bütün gecəni əməliyyat planı cızdım...

Səhər saat 7-də yola düşdük. Çox çətin idi irəliləmək, minalı yolları, çayı keçmək lazım idi. Amma biz bunu bacardıq və təxminən 20 kilometr məsafədə ermənilərin ərazisinə girdik...

Doğulduğum Muğanlı kəndində idik. İyunun 11-i gözlədik, sakitlik idi, amma 12-si səhər saat 10-da Seyid çağırdığımız kəşfiyyatçım, əsl adı Cəsarət idi, qaçıb gəldi ki, sarı UAZ Xocavəndə gəlib dağın arasına girdi. Demə, onların qərargahı da elə burada imiş. 2 nəfər götürdüm, gizlincə dağın başına çıxdıq və oradan ermənilərin qərargahına baxdıq. Qərargahın ağzı döyüşçülər, tanklar, maşınlarla dolu idi. Həmin qərargahın yerini xəritəmə işlədim və qayıtdım uşaqların yanına. Biz gözləməyə başladıq. Bir müddətdən sonra sarı UAZ gəlib yanımızdan keçib getdi səngərlərinə.



Günorta saat 2 olardı, UAZ qayıdıb gələndə Xonaşen çayının içində qaldı, keçə bilmədi. Binoklla baxdım ki, maşından saqqallı, yekəpər bir erməni düşdü. O, arxasınca gələn 2 əsgəri qaytardı geri, (əl ilə işarəsindən təxmin etdim ki, UAZ-ı çıxarmalarını istəyirdi) özü isə kəndə tərəf gəlməyə başladı...

## İbadın kəsdiyi cəza Ermənistanda matəmə çevrildi

Avonun hərəkət istiqamətini kəşfiyyatçı dəqiqliyi ilə hesablayan İbad öz oxuduğu doğma məktəbin qarşısında birdən-birə bu yekəpər ermənininin qarşısını kəsir. Ani görüş Avonu çaşdırır və o heç cür inana bilmir ki, günün günorta çağı azərbaycanlı kəşfiyyatçı onun qarşısına haradan çıxdı...

Bu qəfil qarşılaşmada İbadın silahı hazır, düşmənə tuşlanmış, Avonun silahı isə əlində ağzıaşağı vəziyyətdə idi. Aralarında təxminən 25 metr məsafə olardı. Birdən Avo cəld avtomatını qaldırıb İbada tuşlayır, amma silahın qoruyucusunu endirmək istəyəndə özü atəşə məruz qalır. Birinci güllə qarnından dəyir, o fırlanıb qoruyucunu endirir və çevrilib İbadı vurmaq istəyəndə böyründən daha bir güllə dəyir və ağzı üstə yerə yıxılır, silahı isə özündən xeyli irəli düşür. İki güllə dəysə də, Avo pişik çəldliyi ilə silahın dalınca cumur, amma qaçaraq ona çatan İbadın sifətinə vurduğu qüvvətli təpik zərbəsi ilə arxası üstə düşür və bir daha ayağa qalxa bilmir...

Dərhal tülkü xislətinə bürünərək təmiz türk ləhcəsi ilə yalvarmağa, İbada vədlər verməyə başlayır... Deyir, sənin üçün başqa dövlətlər vasitəsilə nə istəsən "yapacam", burax məni...

Aradan bir müddət keçəndən sonra isə bütün Xocavəndi "Avo", "Avo" deyə bağıra-bağıra gəzən ermənilərin təşvişli hay-küyü bürüyür...

Hələ bilmirdilər ki, əlləri günahsız azərbaycanlıların qanına batan "qəhrəman"larının indi öz başsız cəsədi qanlar içində, başı isə 22 yaşlı cəngavərimiz İbadın ayağı altındadır...

Bütün Ermənistan qəhrəman saydığı terrorçunun xatirəsinə 3 gün rəsmi matəm saxladı, mənfur lobbi isə bütün dünya boyu ermənilər üçün bir ay yas elan etdi...

## Hospitalda üç aydan sonra ayıldım...

- Avonun başını, qolunu, sənədlərini, vəsiqəsini götürdüm...

Amma mənim ələ keçirdiyim əsas qiymətli məlumat ermənilərin qərargahları haqqında plan idi. Biz buna əsasən o yeri vurduq və dağıtdıq, demək olar ki, onunla da müharibənin gedişi dəyişdi...

Xocavəndin bir hissəsi bizdədir, bax ora bizim şücaətimiz sayəsində bizdə qalıb. Ermənilər tərəfdə kəşfiyyatda olan zaman özümüz tərəfə baxdım və onlara yaxın bir yerdə səngər yaratmaq üçün münasib yüksəklik olduğunu gördüm. O zaman bizim səngərlər, erməni səngərlərindən kilometrlərlə arxada idi. Hər biri cəngavər, döyüş ruhlu 36 kəşfiyyatçım var idi. Biz gecə ilə gəldik və ermənilərin 300 metrliyində səngərləri qazdıq. Səhər saat 6-da ermənilər durub gördü ki, düz qarşılarında səngər qazıb durmuşuq. Bütün qüvvələrini bura yığdılar. Cəmi 4 qumbaraatanımız, 14 mərmimiz var idi.

Onların 7 tankı gəldi yığıldı, nə qədər atdılar, gördülər ki, cavab vermirik. Çaşdılar, elə bildilər ki, bu nə isə taktikadır. Ratsiya ilə hərbi hissəmizin komandiri Barat Quliyevi (rəhmətə gedib) yığdım. Dedim ki, mən filan yerlərdə səngəri qoyub dayanmışam. O dedi ki, nə danışırsan, orada dayanmaq olmaz... Çox dəli-dolu idim...



Hirsləndim, sürücüyə dedim ki, maşını işə sal, gedib onlara sübut edim ki, səngər burada olmalıdır, orada yox...

Köhnə UAZ idi, qapısı bağlanmırdı deyə ağacla bağlayırdıq. Maşın sürətlə yola düşəndə ağac sındı, sürücü dedi ki, qoy saxlayım düş, qapını düzəldərik sonra gedərik. Razı olmadım. Qapını qolumla tutdum və elə belə də yuxulamışam...

Bir də üç ay sonra ayıldım ki, hospitaldayam... Maşın minaya düşmüşdü...

Amma hazırda da Azərbaycan əsgəri o zaman qazdırdığımız səngərlərdə durur...

## Bugünkü qələbəmiz Ulu Öndərin qoyduğu sağlam bünövrənin üzərində ucalıb

- Müharibə bitəndən sonra da dayanmadım, hər zaman təbliğat apardım, gəncliyimizin vətənpərvər, döyüş ruhunda yetişməsinə çalışdım. Danışıqlarımda ancaq qəhrəmanlıq, döyüş əzmi, gücü oldu. Deyirdim ki, biz hər zaman ermənilərdən güclü olmuşuq. O zaman torpaqlarımız siyasətə qurban getdi.

Bizim əsas gücümüz Gəncədə, Lənkəranda, Bakıda idi. Erməni ilə döyüşən qüvvələr çox az, xırda-xırda qüvvələr idi. Azərbaycanın adı var idi, dövlət yox idi. Ordu yox, silah yox, geyim yox, yemək yox...

Yiyəsiz qüvvələr qalıb döyüşürdük, bir komandanlıq altında döyüş getsəydi, erməni heç zaman bizim torpaqlarımızı ala bilməzdi. Hər zaman deyirəm, Ulu Öndər Heydər Əliyev o zaman hakimiyyətə gəlməsə idi, bugünki Azərbaycan mövcud deyildi! Həm çölümüzdə, həm də içimizdə qırğın idi. Heydər Əliyev müharibəni dayandırdı, dövləti qurdu, ordunu formalaşdırdı.

Ulu Öndər hər zaman deyirdi ki, biz Qarabağa qayıdacağıq. Bax, bugünkü qələbəmiz Ulu Öndərin qoyduğu sağlam bünövrənin üzərində ucalıb. Bilirəm ki, qələbəni qazandıran rəhbərdir. 44 günlük müharibədə də Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, düzgün siyasəti bizə qələbə qazandırdı. Ali Baş Komandan min ölçdü, bir biçdi, "İrəli" əmrini verdi. Vətənpərvər oğullarımızın canı, qanı bahasına Qarabağ azadlığına qovuşdu.



## Heydər Əliyevin məktubu

Müharibə Mövsüm kişinin oğlanlarının, Eyvazın, İlyasın, Əbülfətin, İbadın, Füzulinin həyatında dərin yaralar açdı. Kənddən çıxmış uşaqlar, birdən-birə böyüyüb savaşın içinə düşdülər. 5 igid qardaşın hər birinin ayrı-ayrı qəhrəmanlıqları, yüksək səviyyədə döyüş yolu oldu, hamısı döyüşdə yaralandı.

Batalyon komandiri olan qəhrəman İlyas Hüseynov isə müharibə zamanı aldığı yara səbəbindən şəhid olub. Amma bu gün cəsur komandirin ruhu şaddır. Onun həyat və mübarizə yolunun layiqli davamçısı, qızı Nigar Mövsümlü də əmiləri və atası kimi vətənpərvər və Azərbaycanın işıqlı gənclərindəndir. Nigar Mövsümlü ABŞ-ın Harvard Universitetinin fəxarətli magistridir.

İbad Hüseynov fikrə dalır: "Anam İlyasın dərdinə dözə bilmədi, o qədər sinəsinə döydü ki, qaraciyəri partladı. Qardaşımın 40-ı çıxmamış 62 yaşlı anamı da itirdik. Qağam da 65 yaşında vəfat etdi. Asan deyildi, 5 oğul göndərmişdilər döyüşə, hər anları narahat, səksəkəli idi. Atam da, anam da elə bizim dərdimizi çəkə-çəkə bu dünyayla vidalaşdılar..."

Amma bu ağır, çətin zamanlar içərisində İbad Hüseynovun əlamətdar, qürurverici anları da çox olmuşdu. Həmin yaddançıxmaz günlərdən biri isə 1999-cu ilin 13 noyabrında yaşanmışdı.

Toy günündə Şəhidlər xiyabanını ziyarət edən İbada zəng gəlmişdi... Danışan Ulu Öndər Heydər Əliyev idi! İbadı ailə həyatı qurması münasibətilə təbrik edir, onun igidliyini yüksək qiymətləndirir və qəhrəmanların qəhrəmanı adlandırırdı. Ulu Öndər qəhrəman döyüşçüyə toyu münasibətilə dəyərli hədiyyələr göndərmiş, şəxsi imzası ilə məktub da ünvanlamışdı...

*"Hörmətli İbad Hüseynov! Azərbaycan torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində göstərdiyin igidlik və şücaətə görə mən öz fərmanımla səni "Azərbaycan Bayrağı" ordeni ilə təltif etmişəm. Sənin kimi şanlı döyüş yolu keçmiş bir gəncin ailə qurmasına, əlbəttə, sevinirəm. Sevib-seçdiyin gözəl azərbaycanlı qızı ilə birlikdə səni ürəkdən təbrik edir, sizə xoşbəxt həyat, ailə səadəti arzulayıram. Bu şad gününüzdə hər ikinizin valideynlərinə, qohum-əqrəbalarına gözaydınlığı verir, onları səmimi-qəlbdən təbrik edirəm. Arzu edirəm ki, gənclərimizin belə xoş günləri çox, qəm-qüssələri az olsun.*

*Heydər ƏLİYEV, Azərbaycan Respublikasının Prezidenti".*



## Bütün döyüşlərin qalibi

*Müharibədə sanki İlahi qüvvə qoruyurdu İbadı. Heç zaman erməninin qarşısında gizlənmir, həmişə ayaq üstdə döyüşürdü. Ona güllə dəyəndə də yıxılmayıb, dik durmuşdu düşmən qarşısında. Qəhrəman döyüşçü deyir ki, döyüşlərdə məndən 10-12 metr arxada gələn çox əsgərlərimiz şəhid oldu, amma mən sağ qaldım, elə bil güllə məndən qaçırdı...*

- Həyatda insan üçün qələbədən böyük qürur, fərəh yoxdur. Mən də xoşbəxt insanam ki, heç zaman uduzmamışam, nə əlbəyaxa döyüşlərdə, nə də müharibədə.

Bütün həyatım başdan-başa qələbə olub. Qarabağı azad etdiyimiz 44 günlük müharibədə də günüm ordunun içində keçib, bütün bölgələri gəzmişəm... Şanlı ordumuzun qələbələri ilə qürurlanmışam...



*Yenə illər əvvəldəyik, yenə Mövsüm kişi ovdan qayıdır, yenə Kifayət ana övladlarına laylay çalır...*

*Budur, Xocavənddə, Muğanlıdakı evlərinin doqqazında dayanan Mövsüm kişi ilə Kifayət ana 5 igid oğulu - Eyvazı, İlyası, Əbülfəti, İbadı, Füzulini döyüşə yola salır...*

*Oğullar döyüşür, oğullar vuruşur, müharibənin odu-alovu içində addımlayır, hücuma keçir, savaşır, yaralanır, ölümlə burun-buruna gəlir, şəhid olurlar, amma nəhayətində bütün döyüşlərdə namərd düşməni şikara çevirirlər...*

*Bütün döyüşlərin qalibi olurlar...*

*İbad kimi...*

**Yasəmən MUSAYEVA, "Azərbaycan"**

# Nüvədi kəndinin sakinləri doğma torpaqlara qayıtmaq hüququnun təmin olunması üçün dünya birliyinə müraciət ediblər

1991-ci il avqustun 7-dək Ermənistanda azərbaycanlıların kompakt yaşadıqları sonuncu yaşayış məntəqəsi olan Nüvədi kəndinin sakinləri doğma torpaqlara qayıtmaq hüququnun təmin olunması üçün BMT-nin Baş katibinə, təşkilatın İnsan Hüquqları üzrə Ali Komissarına, İnsan Hüquqları Şurasının rəhbərinə, Qaçqınların İşləri üzrə Ali Komissarına, İslam Əməkdaşlıq Təşkilatının rəhbərinə, ATƏT-in hazırkı sədrinə, Avropa Şurasının Baş katibinə, Avropa Şurası Parlament Assambleyasının prezidentinə, UNESCO və ICESCO-nun Baş direktorlarına müraciət ünvanlayıblar.



AZƏRTAC xəbər verir ki, müraciəti Nüvədinin 452 ailəsi adından kəndin ən yaşlı sakini 96 yaşlı Tamaşa Hüseynova, Ermənistan SSR Parlamentinin sabiq deputatı 90 yaşlı Musa Yusibov, akademik Fikrət Əliyev və hüquq elmləri doktoru, professor Əmir Əliyev imzalayıblar.

Müraciətdə qeyd olunur ki, 1991-ci ilə qədər bir nəfər də erməninin yaşamadığı Nüvədi kəndi 1929-cu ilə qədər inzibati ərazi bölgüsü cəhətdən Azərbaycanın Cəbrayıl qəzasına tabe olub. Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası fəhlə, kəndli, qızıl ordu və matros deputatları sovetlərinin Mərkəzi Komitəsi Rəyasət Heyətinin 1929-cu il 18 fevral tarixli iclasının qanunsuz qərarı ilə Nüvədi kəndi Azərbaycan SSR-in Cəbrayıl qəzasından alınaraq Ermənistan SSR-in Mehri qəzasının inzibati idarəetməsinə verilib. Həmin sənəd uzun müddət rəsmən təsdiq edilməyib. Nəhayət 1969-cu ilin mayında kəndin əhalisinin heç bir razılığı alınmadan Nüvədi Ermənistan SSR-in Mehri rayonunun inzibati ərazi vahidinə daxil edilib. Nüvədi kəndinin sakinləri Azərbaycan xalqının multikultural və tolerant adət-ənənələrindən çıxış edərək dinc erməni xalqı ilə birgəyaşayışa hazır olduqlarını bildiriblər.

Diqqətə çatdırılır ki, insan hüquqları ilə bağlı bütün sənədlər, o cümlədən 1948-ci il tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, 1951-ci il Qaçqınların statusu haqqında Beynəlxalq Konvensiya, 1966-cı il beynəlxalq paktları, BMT-nin 1998-ci il tarixli Məcburi köçkünlərlə bağlı Rəhbər Prinsipləri, BMT-nin İqtisadi və Sosial Şurasının 2005-ci ildə qəbul etdiyi Qaçqınlar və məcburi köçkünlər üçün ev və əmlak restitusiyası Prinsipləri və digər sənədlər onların qayıtmaq hüququnu tam təsdiqləyir.

Vurğulanır ki, Nüvədi kəndi qədim və zəngin tarixə malikdir. Kənd ərazisində yerləşən tarixi Sultan-Səlmə istehkamı, həmçinin Baba Hacı, Abdulata, Tişneyni və digər ziyarətgahlar, eyni zamanda Orta əsr qəbiristanlıqları, mükəmməl mühəndis konstruksiyalı yeraltı dəhnə və yerüstü kəhrizlər sistemi zəngin və qədim tarixdən yadigardır.

Qeyd olunur ki, bu gün Nüvədi kəndinin tarixi adı dəyişdirilərək Nrnadzor adlandırılıb. Yer adları, coğrafi adlar da qeyri-maddi mədəni irsin bir hissəsidir və onların kütləvi şəkildə saxtalaşdırılması orada əsrlərboyu yaşamış insanların mədəni hüquqlarının birbaşa pozulması olmaqla, "toponimik soyqırımı" adlı soyqırımı növüdür. Həmin ərazilərdə yerləşən tarixi, dini, memarlıq və mədəniyyət abidələrinin məhvi isə bilavasitə "mədəni soyqırımı" siyasətinin tərkib hissəsidir.

"Nüvədidən qovulmuş azərbaycanlılar əvvəlki tarixi yaşayış yerlərinə geri qayıtmalarına, kəndin tarixi, mədəniyyət və dini abidələrinin qorunmasına dəstək istəyirlər. Nüvədi kəndinin bütün tarixi qəbiristanlıqları vəhşicəsinə dağıdılıb və dağıdılmaqda davam edir", - deyə müraciətdə vurğulanır.

# Xarici ölkənin ərazisində qanunsuz silahlı birləşmələrin fəaliyyətində iştirak edən şəxs məsuliyyətə cəlb olunub

Dövlət Təhlükəsizliyi Xidməti (DTX) xarici ölkələrin ərazisində qanunsuz silahlı birləşmələrin fəaliyyətində iştirak edən Azərbaycan Respublikası vətəndaşlarının müəyyənləşdirilərək cinayət məsuliyyətinə cəlb olunmaları istiqamətində tədbirləri davam etdirir.

AZƏRTAC DTX-nin saytına istinadla xəbər verir ki, Suriya Ərəb Respublikasının ərazisində həmin dövlətin və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin fəaliyyətində iştirak etdiyinə görə barəsində DTX-də aparılan cinayət işi üzrə axtarış elan edilmiş Azərbaycan Respublikasının vətəndaşı 1979-cu il təvəllüdlü Mirismayıllı Mirəhəd Tofiq oğlu Dövlət Təhlükəsizliyi Xidmətinin Ukrayna xüsusi xidmət orqanları ilə birgə keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində Ukrayna ərazisində müəyyənləşdirilərək saxlanılıb və ölkəmizə gətirilib.

Mirəhəd Mirismayıllı Suriyada Hacıyev Aqil Tağı oğlunun başçılıq etdiyi "Cundu Şam" adlı cinayətkar birliyin fəaliyyətində iştirak etmək üçün 2013-cü il iyunun 20-də həmin ölkəyə gedərək orada aparılan silahlı münaqişələrdə Azərbaycan Respublikasının digər vətəndaşları ilə birgə iştirak etməkdə şübhəli bilinir.

Həmçinin müəyyən edilib ki, Azərbaycan Respublikası vətəndaşlarının bir qismi həmin bölgələrdə davam edən silahlı münaqişələr zamanı öldürülüb.

Faktla bağlı Dövlət Təhlükəsizliyi Xidmətində istintaqı aparılan cinayət işi üzrə Mirəhəd Mirismayıllıya Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1, 279.1-ci (Azərbaycan Respublikasından kənarda qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin fəaliyyətində iştirak etmə) maddəsi ilə ittiham elan olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

O, istintaqa ifadəsində törətdiyi cinayət əməlini etiraf edərək səmimi peşmanlıq hissi keçirdiyini bildirib.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Azərbaycan ərazilərinə qanunsuz silah-sursatın daşınmasında təqsirləndirilən erməni iş adamları beynəlxalq axtarışa verilib

Dövlət səviyyəsində terroru dəstəkləyərək, terrorçuluğu təcavüzkar siyasətinin əsas vasitələrindən birinə çevirmiş Ermənistan Respublikasının işğalçı mahiyyətinin beynəlxalq müstəvidə ifşa olunması üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən zəruri tədbirlər görülür.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasına və oradan Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinə qaçaq yolla xüsusilə külli miqdar dəyərində silah-sursatın, hərbi texnikanın qanunsuz olaraq daşınması barədə bir sıra kütləvi informasiya vasitələrində və sosial media səhifələrində dərc edilmiş məlumatlar üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğunda araşdırma aparılıb.

Müəyyən edilib ki, biznes fəaliyyəti ilə məşğul olan "Taşir" şirkətlər qrupunun rəhbəri Karapetyan Samvel Sarkisoviç, Ermənistanda "boz biznesmen" kimi tanınan və "Royalsys Engineering" şirkətinin sahibi David Qalustyan, "KOMEX" şirkətinin baş direktoru Abramyan Ara Arşaviroviç və qeyriləri Ermənistan Respublikasının silahlı qüvvələrini qanunsuz olaraq silah, döyüş sursatı, partlayıcı maddələr, hərbi texnika, yaxud əsgəri ləvazimat ilə təchiz edilməsi üçün 2001-2021-ci illərdə müxtəlif vaxtlarda hava yolu ilə "Beynəlxalq yük daşımaları haqqında" Gömrük Konvensiyasının, "Avropada Adi Silahların Məhdudlaşdırılması" haqqında Müqavilənin tələblərinə zidd olmaqla müxtəlif reyslərlə uçan sərnişin təyyarələri, habelə Ermənistan Hərbi Hava Qüvvələrinin İL-76 TD tipli yük təyyarəsi, eləcə də Ara Abramyan tərəfindən alınmış "İLYUSHİN-76TD" tipli yükdaşıma təyinatlı təyyarə ilə - ayırdıqları maliyyə vəsaiti hesabına hərbi təyinatlı iriçaplı odlu silah, döyüş sursatı, hərbi təyinatlı partlayıcı maddələr və qurğuları, o cümlədən raketləri qanunsuz əldə edib Ermənistan Respublikasına və Ermənistanın işğalına məruz qalmış Azərbaycan Respublikasının Dağlıq Qarabağ və ətraf rayonlarına qaçaq yollarla daşınmasını təşkil edib.

Faktla bağlı 2021-ci il aprelin 28-də Baş Prokurorluqda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb və istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə olunub.

Həmin əməllərə görə Karapetyan Samvel Karapetyan, David Qalustyan və Ara Abramyan Cinayət Məcəlləsinin 100.1-ci (təcavüzkar müharibəni planlaşdırma, hazırlama və ya başlama), 218.1-ci (ağır və ya xüsusilə ağır cinayətlər törətmək məqsədilə cinayətkar birlik yaratma), 228.3-cü (qanunsuz olaraq odlu silah, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə mütəşəkkil dəstə tərəfindən törədildikdə), 279.1-ci (Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə), 206.4-cü ( qaçaqmalçılıq mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində həbs qətimkan tədbiri seçilməklə beynəlxalq axtarış elan olunub.

Hazırda həmin cinayət işi ilə əlaqədar Baş Prokurorluq tərəfindən xarici ölkələrin aidiyyəti dövlət qurumlarına hüquqi yardımın göstərilməsi haqqında vəsatətlər göndərilib.

Baş Prokurorluq bəyan edir ki, qeyd edilən və bu kimi digər cinayət faktlarına görə təqsirkar şəxslərin beynəlxalq hüquq normalarına əsasən məsuliyyətə cəlb olunması üçün bütün mümkün tədbirlərin görülməsi davam etdirilir.

# Kəlbəcər və Laçın rayonlarında külli miqdarda mina basdırdıqlarını etiraf edən erməni zabitlə bağlı cinayət işi başlanıb

**Məlum olduğu kimi, bir sıra kütləvi informasiya vasitələrində və sosial media səhifələrində Ermənistan silahlı qüvvələrinin polkovniki Koryun Qumaşyanın İrəvandakı "Noyan Tapan" agentliyinə və Ermənistan televiziyasına iyunun 6-da müsahibə verərkən Kəlbəcər və Laçın rayonlarında təxminən 500-600 hektar ərazini zəncirvari minaladıqlarını, bunun üçün 17 yük avtomobili həm tank, həm də piyada əleyhinə mina basdırdıqlarını etiraf etməsinə dair videogörüntülər yayılıb.**

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bununla bağlı Baş Prokurorluqda araşdırma aparılıb, "Tiqran Mets" hərbi təlim-tədris məktəbinin direktoru, Ermənistan silahlı qüvvələrinin ehtiyatda olan polkovniki Koryun Qumaşyanın şəxsiyyəti istintaqla araşdırılan digərləri ilə qabaqcadan əlbir olub cinayət əlaqəsinə girərək təxribat xarakterli fəaliyyəti yerinə yetirmək, Azərbaycan vətəndaşlarına qarşı qırğınlar törətmək, insanları qəsdən həyatdan məhrum etmək məqsədilə Azərbaycan Respublikasının Laçın və Kəlbəcər rayonları ərazilərində 17 yük avtomobili tank və piyada əleyhinə minaların basdırmalarına şübhələr müəyyən olunub.

Koryun Qumaşyanın minaların basdırılması ilə əlaqədar göstərdiyi məlumatların Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən təkzib edilməməsi və ya hər hansı rəsmi münasibət bildirilməməsi həmin faktların mövcud olmasına dəlalət edir.

Həmçinin son zamanlar işğaldan azad edilmiş Laçın və Kəlbəcər rayonları ərazilərində soydaşlarımızın tank və piyada əleyhinə minalara düşərək həlak olmaları və müxtəlif dərəcəli bədən xəsarətləri almaları bir daha göstərilən faktların həqiqətə uyğun olmasını təsdiqləyir. Yuxarıda göstərilənlərlə əlaqədar Gəncə Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Həmin əməllərə görə Koryun Qumaşyan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 120.2.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən adam öldürmə), 120.2.7-ci (iki və ya daha çox şəxsi öldürmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə adam öldürmə) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə barəsində məhkəmənin müvafiq qərarı ilə həbs qətimkan tədbiri seçilib və o, beynəlxalq axtarışa elan olunub.

Sözügedən və bu kimi digər cinayət faktlarına görə təqsirkar şəxslərin beynəlxalq hüquq normalarına əsasən məsuliyyətə cəlb olunması üçün Baş Prokurorluq tərəfindən mümkün olan bütün tədbirlərin görülməsi davam etdirilir.




# Texnologiya milyardlar qazandırır

**Varlı olmaq hər kəsin xəyalında əlçatmaz görünərkən texnoloji inkişaf bu arzunu reallaşdırmaq üçün geniş imkanlar yaradır.**



Belə ki, "Bloomberg Milyaderlər İndeksi"nə görə dünyanın ən varlı 10 insanından 8-i texnologiyanın nəticəsində buna nail olub. Siyahının ilk pilləsində 188 milyard dollarla "Amazon" onlayn satış saytının qurucusu Ceff Bezos, 2-ci yerdə 172 milyard dollarla İlon Mask, 4-cü yerdə isə 144 milyard dollarlı Bill Geyts qərarlaşıb.

## *İlon Mask, yoxsa Bill Geyts?*

Son illər iki texnologiya dahisi arasında gedən rəqabətdə insanlar da iki hissəyə bölünüb. Onların bəziləri İlon Maskın, digərləri isə Bill Geytsin texnoloji inkişafa daha çox töhfə verdiyini düşünür. Günümüzün ayrılmaz parçasını təşkil edən kompüterlərin əsas proqram sistemlərindən biri olan "Microsoft"un yaradıcısı Bill Geyts bir zamanlar varlı insanlar arasında ilk sırada yer alarkən İlon Mask öz ixtiraları ilə onu keçməyi bacardı. Rəqabət bazarına yeniliklərlə daxil olan İ.Mask hər kəsdə təəccüb doğuracaq ilklərə imza atdı. Ən böyük uğurlarından biri elektriklə işləyən avtomobillərin istehsalı oldu. Əsas məqsədlərindən biri isə Marsın koloniyalaşdırılması ideyasını reallaşdırmaqdır.

Hazırda Marsın müxtəlif ərazilərindən görüntülər və səslər əldə etmək üçün bir çox yeni avadanlıqlardan istifadə olunur. 1903-cü ilə qədər elm hesab edirdi ki, səmada yalnız quşlar uça bilər. Sonradan icad edilən hava nəqliyyatları Yer kürəsi və Aydan başqa planetlərdə fəaliyyətlərini həyata keçirməmələri ilə fərqlənsələr də, bu fikri bu yaxınlarda havaya qalxan Mars helikopteri dəyişdi. Marsdan əldə edilən aydın görüntülərdə məhz bu helikopterin böyük payı oldu və bu planetlə bağlı daha dərin fikirlərin formalaşmasına yol açdı.

Yaşadığımız dünyadan kənarda həyatın olması hər nə qədər bizə absurd gəlsə də, Marsa göndərilən raketlər və tədqiqatçılar bunun yaxın gələcəkdə reallaşacağının canlı şahidi olacağımızı deyirlər. Rəqəmsal dünya bəşəriyyəti inanılmaz görünən reallıqlara qovuşduracaq.

## Uçan taksi



**Hava nəqliyyatı dedikdə, əsasən, təyyarə və helikopterlər göz önünə gəlir. Bu fikri dəyişdirən yeni texnoloji kəşf isə uçan taksilər oldu.**

Əvvəllər taksi dedikdə ağla yalnız quruda hərəkət edə bilən nəqliyyat vasitəsi gəlirdi. Lakin tezliklə insanlar uçan taksi ilə də gedəcəyi ünvana çata biləcəklər. Uçan taksilər 2018-ci ildən bəri müxtəlif şirkətlərin ilkin nümunə ideyaları ilə təqdim olunurlar. Bu il isə Çində "eVTOL" (elektrikli şaquli qalxma və enmə) adlandırılan ilk uçan taksilər sınaqdan çıxarıldı.

İnsan həyatına bir çox üstünlüklər gətirəcək bu nəqliyyat növü ətraf mühitin qorunması istiqamətində də atılan uğurlu addımlardandır. Hazırda taksilər iki nəfərlik xidmət üçün nəzərdə tutulub. Onlar yalnız elektrikli motor vasitəsilə işləyir ki, bu da ətraf mühitə ekoloji zərər vurulmaması baxımından mühümdür.

Hazırda bir çox şirkətlər uçan taksilərin müxtəlif versiyaları üzərində işləyirlər. ABŞ-ın "Birləşmiş Hava Yolları" isə "Arçer" şirkəti ilə birlikdə "eVTOL" dron taksilərinin istehsalını və yaxın zamanlarda sərnişinlərə təqdimatını hazırlayır.

## Smart teleskop

**Kainatın daim maraq doğuracaq suallar yaratması tarixboyu qalaktikanın müxtəlif metodlarla araşdırılmasına səbəb olub. Səmanı aydın görmək üçün kəşf olunan teleskopun tarixi XVII əsrə gedib çıxır.**



Bu teleskop hər iki ucunda böyüdücü linzalar olan uzun borudan ibarət idi. Bu ixtiradan sonra daha təkmilləşdirilmiş formaları hazırlanan teleskoplar nəticəsində sərgilər, səmaya, ulduz və planetlərə baxmaq üçün mərkəzlər yaradıldı.

Texnoloji inkişaf bu gün kiçik ölçülü teleskoplar vasitəsilə səmanı daha yaxın edir. İtaliyanın "Vaonis" şirkəti mövcud teleskoplar siyahısına 2022-ci ildə satışa çıxaracağı "Vespera" adlı smart teleskopu da daxil edib. Şirkətin bundan öncə 2018-ci ildə istehsal etdiyi "Stellina" adlı teleskop da var. Lakin "Vespera" bu teleskopdan bir çox yeniliklərlə fərqlənir. Teleskopla səmaya müşahidə zamanı görüntülər göz linzası ilə deyil, smartfonlara və ya planşetlərə köçürülərək əldə edilir. 4 saatlıq enerji müddəti və kiçik ölçülü olması teleskopun daşınmasını asanlaşdırır. Teleskopa sahib olanlar qalaktikanın görüntülərini şəkil və ya video halında saxlaya, bunları digər şəxslərlə bölüşə bilərlər.

Bu ixtiralar nəticəsində nəhəng kainatın möcüzələrinə bir teleskopla çatmaq artıq hamı üçün əlçatandır.

## Bir dövr də bitir...

**"Microsoft" şirkəti 1995-ci ildə istifadəyə verilən ilk brauzerin "İnternet Explorer"in şəbəkədən çıxarılacağını rəsmi olaraq elan edib.**



Şirkətin meneceri Sin Lindersey açıqlamasında 2022-ci il iyunun 15-də onun tamamilə Microsoft Edge ilə əvəz ediləcəyini bildirib. "Microsoft Edge" ilk dəfə 29 iyul 2015-ci ildə istifadəçilərə təqdim edilib.

Xatırladaq ki, 2021-ci ilin aprelindən etibarən "Google Chrome" platforması dünya internet brauzerləri bazarında 65 faizlə birinci yerdədir. Sonrakı yerlərdə isə "Apple Safari", "Firefox", "Microsoft Edge", "Samsung İnternet" və "Opera" qərarlaşıblar.

2009-cu ildə dünya üzrə 62 faizlik göstərici ilə bazara hakim olan "İnternet Explorer"dən istifadə artıq 1 faizdən də aşağıdır. Ötən dövrdə "Google Chrome"-dan istifadə isə dünya üzrə 2 faizdən 65 faizə yüksəlib.



## "Ağıllı ev"lər

**Ev insanın özünü güvəndə hiss etdiyi məkandır. Yorğun iş günlərinin, uzun səyahətlərin stresini üzərimizdən ata biləcəyimiz yerdir.**

Zaman-zaman, habelə mövsümlərdən asılı olaraq evin rahatlığıyla bağlı bəzi istəklərimiz olur, kaş biz evə dönərkən yayda sərin, qışda isti olaydı, mənzilə daxil olarkən işıqlar avtomatik yanıb sönəydi... və s. Müasir texnologiyanın əldə etdiyi nailiyyətlər ilə bu arzular indi əlçatmaz deyil. "Ağıllı ev"lər məhz bunun üçün nəzərdə tutulub.

"Ağıllı ev" sistemləri yaşayış yerində və ya ofisdə təhlükəsizliyi təmin etmənin və enerjidən qənaətlə istifadənin ən səmərəli yoludur. Bu cür sistemlər elektrik enerjisinin sərfiyyatı, otaqlardakı istiliyin və hərəkət sensorlarının tənzimlənməsi, qapı və jalüzlərin idarə olunması, havanın təmizlənməsi və həyəcan siqnalının işə düşməsi kimi bir çox funksiyanı yerinə yetirir.

Rastlaşdığımız və yararlandığımız texnoloji nailiyyətlərin demək olar ki, hamısını insanlar ilk dəfə məhz fantastik kitab, jurnal və filmlərdə görüblər. Nə vaxtsa xəyal görünən cihazlar artıq günümüzün reallığıdır.

İlk dəfə "Ağıllı ev" ideyası ABŞ yazıçısı Rey Bredberinin 1950-ci ildə işıq üzü görmüş "The Veldt" adlı hekayəsində irəli sürülüb. Daha sonra, 1999-cu ildə "Disney" şirkəti tərəfindən ekranlaşdırılmış "Smart Home" ("Ağıllı ev") filmində gündəmə gətirilib.

Bütün bunlar bir daha sübut edir ki, vaxtilə insanlara qeyri-mümkün, reallıqdan uzaq görünən, "texnoloji uydurmalar" və "xülyalar" bir gün reallığa çevrilib sürətlə həyatımıza daxil ola bilər.

## İlk rəssam robot

**Dünyanın ilk rəssam robotu olan Ai-Danın bu yaxınlarda Londonda sayca ikinci sərgisi açılıb. Sərgi mayın 18-dən avqustun 29-na qədər incəsənətsevərlərin ixtiyarına verilib.**



İlk sərgisindən 1 milyon dollardan artıq gəlir əldə edən Ai-Danın uğurları hamını təəccübləndirmişdi. Texnologiyanın son nailiyyətlərindən biri olan rəssam robotu 2017-2019-cu illərdə Oksford və Lidz universitetlərinin proqramçı, robot mühəndisləri və psixoloqlarından təşkil olunmuş heyət yaradıb. Robotun adının bir hissəsi dünyada ilk proqramçılardan olan ingilis riyaziyyatçısı Ada Lavleysin şərəfinə qoyulub, digər hissəsi isə ingilis dilindəki suni intellekt (artificial intelligence) sözlərinin baş hərfləridir. Qadın görüntüsündə və insan ölçülərində olan Ai-Danın qolları həqiqətəbənzər rəqəmsal rəsmlər yarada bilən süni intellekt alqoritmikası tərəfindən idarə edilir. Robotun gözlərinə özünü görə bilməsi və gördüklərini kopyalaması üçün kameralar yerləşdirilib.

## "İstedadlı tərcüməçi"lər

**İlyarımdır ki, həyatımızı çənginə alan COVID-19 pandemiyası iqtisadiyyata və sosial sferaya ağır zərbə vursa da, yeni texnologiyaların yaranmasına və təkmilləşdirilməsinə təkan verib. Belə ki, bir çox gündəlik tələbatımızın təmassız ünsiyyət vasitəsilə həll olunması texnoloji avadanlıqların inkişafına səbəb olub.**

Müasir dünyamızda köməyimizə çatacaq ixtiralardan biri 5G və daha da sürətli naqilsiz qulaqcıqlardır. Çinin "Timekettle Technologies" şirkəti artıq tərcüməçi qulaqcıqların satışına başlayıb. Bu cihaz hazırda özündə 40 dili birləşdirir. Texnologiyanın son nailiyyətlərindən olan "tərcüməçi qulaqcıq" dünya əhalisinin 95 faizinə bu yenilikdən yararlanmaq imkanı yaradır. Ən əsası isə onlar internet şəbəkəsinə qoşulmadan çalışırlar. Cəlbedici görünüşə sahib olan bu qulaqcıqlar yüksək və aydın səsə, nəm və tozdan qorunmaya, sürətli şarj imkanlarına malikdirlər.




Daha öncəki illərdə müxtəlif şirkətlər tərcüməçi qulaqcıqları təqdim etmişdilər. Lakin onlardan istifadə edilərkən bəzi problemlər meydana çıxmışdı. Əsas problem onların bəzi sözləri səhv tərcümə etməsi idi. Bu da onların kifayət qədər populyarlıq qazanmasına əngəl oldu. Lakin texnologiyanın sürətli inkişafı bu problemi də tezliklə həll etdi.

*Aydan XƏLİLOVA,*
*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

Futbol üzrə XVI Avropa çempionatı

# SÜRPRİZƏ İMKAN VERİLMƏDİ

*Əvvəli 1-ci səh.*

Komandada edilən oyuncu dəyişiklikləri belə matçın gedişatına təsir edə bilmədi. Yekunda 2:0 hesabı ilə qalib gələn niderlandlar "Avro-2020"nin 1/8 finalına vəsiqəni təmin etdilər.

Qeyd edək ki, Niderland yığması Avropa çempionatına seçmə mərhələnin C qrupunun ikincisi kimi qatılıb. Komanda Almaniya, Şimali İrlandiya, Belarus və Estoniya ilə mübarizədə 8 oyunun 6-da qələbə qazanıb, 1-də heç-heçə edib və 1 dəfə məğlub olub.

Lider Almaniyadan 2 xal geri qalmaqla 19 xal toplayan Niderland 3-cü pillənin sahibi Şimali İrlandiyanı 6 xal üstələyib. Əsas rəqibi Almaniyaya evdə uduzsa da, səfərdə qələbə qazanan "narıncılar" yeganə heç-heçəsini Britaniya təmsilçisi ilə matçda etdi.

Rəqib qapılarına 24 qol vuran Niderland futbolçuları 7 top buraxıblar. Komandanın ən yaxşı bombardiri qəribə də olsa, 8 qolla dayaq yarımmüdafiəçisi Corcinio Veynaldum olmuşdu.

Niderland tarixində 10-cu dəfə Avropa çempionatının final mərhələsində oynamaq hüququ qazanıb. Yığma əvvəlki 9 cəhdin 1-də çempion olmağı bacarıb. Bu, 1988-ci ildə reallaşıb. Ronald Kuman, Ruud Qullit, Frank Raykard, Marko van Bastenli yığma həmin vaxt məğlub olmadan Avropa çempionu adını qazanıb. Niderland millisi 4 dəfə də qitə 3-cüsü olub. Ancaq son vaxtlar yığmanın Avropa çempionatlarında işləri qaydasında getmir. 2012-ci ildə qrupda qalan "zanbaqlar ölkəsi" 4 il sonrakı qitə birinciliyinə, ümumiyyətlə, vəsiqə qazana bilməmişdi.

**Ukrayna - Şimali Makedoniya - 2:1**
***Qollar:*** Yarmolenko, 29 (1:0), Yaremçuk, 34 (2:0), Alioski, 57 (2:1)
***Baş hakim:*** Fernando Rapallini (Argentina)
**Buxarest. Milli Arena**

C qrupunun digər matçında isə Ukrayna və Şimali Makedoniya yığmaları üz-üzə gəldilər. Daha baxımlı futbol nümayiş etdirən Andrey Şevçenkonun komandası matç boyu bütün komponentlərdə rəqibini üstələdi. Yarmolenkonun bir dirijor kimi idarə etdiyi Ukrayna millisi istədiyi vaxt oyunun tempini qaldırır və endirirdi. Şimali Makedoniya kollektivi isə daha çox əks-hücumlara üstünlük verməyə çalışırdı.

Ukraynanın hücumlara qoşularkən cinah müdafiəçilərinin itirilən hər topdan sonra geri dönüşlərdə müəyyən axsamalar yaşaması əks-hücumlarda Ş.Makedoniya komandasına matçın müəyyən hissələrində əlavə üstünlüklər yaratsa da, bundan yararlana bilmədilər. Yekunda 2:1 hesabı ilə qalib gələn Ukrayna seçməsi cari turnirdə ilk qələbəsini qazandı.

Qeyd edək ki, Ukrayna yığması Avropa çempionatına seçmə mərhələnin B qrupunun qalibi kimi qatılıb. Komanda Portuqaliya, Serbiya, Lüksemburq və Litva ilə mübarizədə 8 oyunun 6-da qələbə qazanıb, 2-də heç-heçə edib. Ümumilikdə 20 xal toplayan "sarı-göylər" Portuqaliyanı 2 xal üstələyərək seçmə mərhələ qrupunu lider kimi tamamladı.

Ölkə müstəqillik əldə etdikdən sonra yığma 2 dəfə Avropa çempionatlarının final mərhələsində yarışmaq hüququ qazanıb. Bunlar son iki qitə birinciliyinə təsadüf edir. Ukrayna heç bir halda qrupdan çıxa bilməyib. Beş il öncə keçirilən çempionatda isə komanda qrup mərhələsində nə qol vura bilib, nə də xal qazanmağı bacarıb. Ukrayna millisinin "Avro-2020" heyəti əsasən ölkə daxilində çıxış edən futbolçulardan təşkil olunub.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

| | Komandalar | O | Q | H | M | TF | X |
|---|---|---|---|---|---|---|---|
| *C qrupu* | | | | | | | |
| 1 | Niderland | 2 | 2 | 0 | 0 | 5-2 | 6 |
| 2 | Ukrayna | 2 | 1 | 0 | 1 | 4-4 | 3 |
| 3 | Avstriya | 2 | 1 | 0 | 1 | 3-3 | 3 |
| 4 | Ş.Makedoniya | 2 | 0 | 0 | 2 | 2-5 | 0 |



## "Avro-2020"nin təqvimi

19 iyun

*F qrupu*

**17:00. Macarıstan - Fransa**
***Budapeşt. Puşkas Arena***
**20:00. Portuqaliya - Almaniya**
***Münhen. Münhen Arena***

*E qrupu*

**23:00. İspaniya - Polşa**
***Sevilya, La Kartuxa Stadionu***

## Çempionatın ən erkən ikinci qolu

**Avropa çempionatları tarixinin ikinci ən sürətli qolu vurulub.**

Bu qol "Avro-2020"nin B qrupunda keçirilən Danimarka - Belçika matçında (1:2) qeydə alınıb. Danimarkalı hücumçu Yussuf Poulsen 99-cu saniyədə hesabı açıb.

Buna qədər isə rekord "Avro-2004"də Rusiya millisinin üzvü Dmitri Kiriçenkonun qolu idi. O, Yunanıstanla görüşdə 65-ci saniyədə rəqib qapısına yol tapmışdı.



## Eriksen əməliyyat olunacaq

**Danimarka millisinin futbolçusu Kristian Eriksen əməliyyat olunacaq. Bunu Danimarka Futbol İttifaqı açıqlayıb. Bildirilib ki, "Avro-2020"nin Finlandiya ilə oyununda (0:1) huşunu itirən yarımmüdafiəçiyə implant kardioverter-defibrilyator yerləşdiriləcək.**

Bu cihaz həyat üçün təhlükəli olan aritmiyaların aradan qaldırılmasına xidmət edir və ürək dayanmasının qarşısını alır: "Eriksen bir neçə tibbi müayinə keçdikdən sonra qərara alınıb ki, futbolçu üçün implant kardioverter-defibrilyator zəruridir. Kristian beynəlxalq səviyyəli mütəxəssislərin məsləhət gördüyü bu addıma razılaşıb. Biz hamını Kristian və ailəsini yaxın müddətdə narahat etməməyə çağırırıq".

Qeyd edək ki, Eriksen iyunun 12-də keçirilən matçın ilk yarısının sonlarında yerə yıxılıb. Ona təxminən 15 dəqiqə təcili tibbi yardım göstərildikdən sonra xəstəxanaya aparılıb. Eriksenin matç zamanı ürəktutması olduğu müəyyənləşib. Hazırda xəstəxanada olan futbolçunun durumu sabitdir.





## Türkiyə qrupdan hansı hallarda çıxa bilər?

**Türkiyə millisinin "Avro-2020"nin hər iki oyununda məğlubiyyəti komandanın qrupdan çıxmaq şansını çətinləşdirib. Daha doğrusu, türklər kiçik ehtimalla, yaxud möcüzə sayəsində 1/8 finala çıxa bilər.**

Məlumdur ki, "ay-ulduzlular" Uelslə qarşılaşmadakı məğlubiyyətdən sonra ikinci yeri tutmaq imkanını əldən veriblər. İndi ümid yalnız ən yaxşı qrup üçüncüsü olmağa qalıb. Bəs qrup üçüncüləri 1/8 finala necə yüksələ bilər?

"Avro-2020"nin əsasnaməsinə görə, 6 qrupun hər birində ilk 2 yeri tutan komandalar "pley-off"a birbaşa vəsiqə əldə edir. Digər 4 vəsiqəni isə ən yaxşı qrup üçüncüləri qazanır.

**Bu zaman nələr nəzərə alınır?**

- Toplanan xal.

**Bu zaman və sonra bərabərliklər olacağı hallarda isə ardıcıllıqla:**

- Vurulan və buraxılan qollar arasındakı fərq;
- Vurulan qol sayı;
- Qələbə sayı;
- "Fair play" xalı (sarı vərəqə - 1 xal, qırmızı vərəqə - 3 xal, iki sarı vərəqəyə görə "qırmızı vərəqə" - 3 xal);
- Nəhayət, seçmə mərhələnin yekununa əsasən, reytinqdəki mövqeyə üstünlük verilir.

Beləliklə, Türkiyə qrup üçüncüsü olmaq üçün son turda mütləq İsveçrəyə qalib gəlməlidir. Amma qələbə türklərə hələ növbəti mərhələyə getməyə təminat vermir. Çünki komanda 2 oyuna 5 qol buraxıb və 1 qol belə vura bilməyib. Hazırda Şenol Günəşin komandasının top fərqi mənfi 5-dir. Bu, hazırkı duruma görə Türkiyənin əleyhinə işləyən ən böyük amillərdən biridir.

Bir-iki top fərqli qələbə hələ 1/8 finala çıxmaq demək deyil. Türklər və digər qruplarda üçüncü yeri tutan komandalar da 3 xal toplayarsa, qardaş ölkə komandasının mübarizəni dayandırması ehtimalı yüksəkdir.

İndiki halda isə ümid daha çox onadır ki, Türkiyə son turda qalib gəlməklə 3 xal qazanmalı, 6 qrupun yekun nəticəsində 3-cü yeri tutan komandalardan 2-si isə maksimum 2 xal toplamalıdır. Bu halda türklər 1/8 finala adlaya bilər.

Amma bir gerçəklik unudulmamalıdır ki, qrupda son turda Türkiyə ilə oyun İsveçrə üçün də əhəmiyyətlidir. Məğlubiyyət İsveçrəni "Avro-2020"dən kənarda qoyacaq. Qələbə qazanacağı halda isə bu komandanın xalı 4 olur və 1/8 finala getmək şansı yüksəlir.

Qrupun digər görüşü İtaliya - Uels matçının nəticəsindən asılı olaraq İsveçrə "pley-off"a ya qrup ikincisi, ya da ən yaxşı qrup üçüncülərindən biri olaraq adlaya bilər.

## UEFA-dan xəbərdarlıq

**UEFA "Avro-2020"nin iştirakçıları olan milli komandalara xəbərdarlıq edib. Federasiyalara edilən müraciətdə Avropa çempionatının qaydalarına riayət edilməli və turnirin sponsorlarına hörmətlə yanaşmaq lazım olduğu xatırladılıb.**

Bu xəbərdarlığa səbəb bir neçə gün əvvəl Portuqaliya millisinin kapitanı Kriştiano Ronaldo və Fransa yığmasının yarımmüdafiəçisi Pol Poqbanın mətbuat konfransındakı hərəkətləridir. Sözügedən oyunçular masanın üstündəki "Avro-2020"nin sponsoru olan içkiləri kənara qoyublar. Bundan sonra isə bir neçə futbolçu eyni hərəkəti təkrarlayıb.

Turnirin direktoru Martin Kallen isə bununla bağlı açıqlamasında federasiyalara cəza verilə biləcəyini deyib: "Turnirdə iştirak edən federasiyalar qaydaları imzalayıblar. UEFA heç vaxt futbolçuları birbaşa cəzalandırmaz. Bunu daima turnirdə iştirak edən ölkələrin yerli federasiyaları vasitəsilə edirik. UEFA komandalara sponsorların turnirin təşkili və futbolun inkişafı üçün nə qədər vacib olduğunu xatırlatdı".





## Dünən keçirilən 2 oyunun nəticəsi:

**D qrupu**

**Xorvatiya - Çexiya - 1:1**
**Qollar:** Patrik Şik, 37-pen (0:1), Perişiç, 48 (1:1)
**Baş hakim:** Karlos del Serro Qrande (İspaniya)
Qlazqo. "Hampden Park" stadionu

**E qrupu**

**İsveç - Slovakiya - 1:0**
**Qol:** Forsberq, 77-pen
**Baş hakim:** Daniel Zibert (Almaniya)
"Sankt-Peterburq" stadionu

## Final Budapeştə verilə bilər

**"Avro-2020"nin finalının məkanı Londondan Budapeştə dəyişdirilə bilər. Bu haqda Britaniyanın "The Times" nəşri məlumat yayıb.**

Məlumata görə, İngiltərə koronavirus pandemiyası səbəbindən stadionun daha çox dolmasına zəmanət verə bilməyəcəyi halda UEFA-nın belə bir qərar verəcəyi istisna edilmir. Budapeşt isə bu təminatı verir.

Ümumiyyətlə, "Avro-2020" zamanı Macarıstan paytaxtındakı oyunlarda tribunaların 100 faiz dolmasına icazə var. Londonda isə "Uembli" stadionunun maksimum 22 faizinə tamaşaçı buraxılır. Qeyd edilir ki, məsələ ilə əlaqədar qitənin futbol qurumu artıq Böyük Britaniyanın Baş naziri Boris Consonu məlumatlandırıb və hökumətdən konkret addım gözləyir.

# "Azercell" "AVRO-2020"də yüksəkkeyfiyyətli mobil şəbəkə təqdim edir!

Ölkəmizdə keçirilən futbol üzrə Avropa çempionatının oyunlarında lider mobil operator gücləndirilmiş iş rejimində çalışır

**"Azercell Telekom" MMC Bakıda keçirilən "AVRO-2020" oyunlarında abunəçilərini müasir və yüksəkkeyfiyyətli rabitə xidmətləri ilə təmin edir.**

Bu il futbol üzrə Avropa çempionatı çərçivəsində 4 oyunun paytaxtımızda təşkil edildiyini diqqət mərkəzində saxlayan lider mobil operator Bakı Olimpiya Stadionunda, eləcə də ətraf ərazilərdə şəbəkənin gücləndirilməsi istiqamətində müvafiq işlər həyata keçirib.

Futbol azarkeşlərinə ən yaxşı müştəri təcrübəsi yaşatmağı hədəfləyən "Azercell" ərazidə şəbəkənin tutumunu dəfələrlə artırıb. Qeyd edək ki, stadion daxilində ümumi mobil şəbəkə infrastrukturu məhz "Azercell" tərəfindən quraşdırılıb. Məkan innovativ şəbəkə həlləri ilə təchiz edilib. Həmçinin hazırda ərazidə "Azercell"in səyyar mobil Radio Baza Stansiyası da fəaliyyət göstərir. Stadionda yüksəksürətli mobil internet xidmətləri təqdim edən "Azercell" tamaşaçılara oyunlardan təəssüratlarını dərhal paylaşmaq, sosial şəbəkələrdə canlı yayım etmək imkanı yaradıb.

"AVRO-2020" çempionatına texniki hazırlıq çərçivəsində aparılan işlər qonaqların yerləşdiyi hotelləri də əhatə edib. Belə ki, mehmanxanalara xidmət verən stansiyalarda şəbəkənin keyfiyyətinin yoxlanılması istiqamətində aktiv işlər aparılır. Əlavə olaraq "Azercell" paytaxtımızın qonaqlarına yüksəkkeyfiyyətli rominq xidmətləri təqdim etmək üçün tərəfdaş operatorlarla daim əlaqədədir və mütəmadi olaraq müvafiq test işləri həyata keçirir.

Xatırladaq ki, işğaldan azad edilmiş ərazilərdə ilk mobil infrastrukturu quraşdıran "Azercell Telekom" MMC-nin ölkə ərazisi üzrə əhatə dairəsi 94%, ölkə əhalisi üzrə isə 98,7% təşkil edir. Təkcə son 2 il ərzində lider mobil operator LTE şəbəkəsinin əhali üzrə əhatə dairəsini 35,9%-dən 85,5%-ə, coğrafi dairəsini isə 22,5%-dən 73,3%-ə qədər genişləndirib. Hazırda bu texnologiya ilə işləyən Radio Baza Stansiyaların ümumi sayı isə 2775-ə çatdırılıb.

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən "Azərbaycan" qəzetinin 18 iyun 2021-ci il tarixli 125 (8718) nömrəsində dərc edilmiş elanda "07.07.2021-ci il saat 18:00-a", "15.07.2021-ci il saat 18:00-a" və "16.07.2021-ci il saat 16:00-da" sözləri müvafiq olaraq "13.07.2021-ci il saat 17:20-yə", "23.07.2021-ci il saat 17:20-yə" və "26.07.2021-ci il saat 17:20-də" sözləri kimi oxunsun.

*Tender komissiyası*

